**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

15 noyabr 2025-ci il №43 (9149) www.muallim.edu.az muallim@media.edu.az

**17 NOYABR MİLLİ DİRÇƏLİŞ GÜNÜDÜR**



## "Milli dirçəliş yolu milli birlik və milli həmrəylikdən keçir"

**"Şərəfli keçmişə, zəngin tarixə və mədəniyyətə malik qəhrəman xalqımız artıq üç ildir ki, Milli Dirçəliş Gününü bayram kimi qeyd edir. Hər dəfə bu bayramın qeyd edilməsi milli həmrəyliyin, demokratiya və suverenliyimizin qorunması uğrunda mübarizənin təntənəsinə çevrilir... Xarici siyasətimizin uğurları, müharibədə atəşkəsin əldə edilməsi, nüfuzlu neft şirkətləri konsorsiumu ilə "Əsrin müqaviləsi"nə imza atılması, ölkədə siyasi sabitliyin bərqərar edilməsi uğurlu dövlət quruculuğunun gələcək perspektivlərindən xəbər verir... Milli dirçəliş yolu milli birlik və milli həmrəylikdən keçir".**

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Milli Dirçəliş Günü münasibətilə Azərbaycan xalqına müraciətindən (16 noyabr 1994-cü il)*



## "BİZ MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ, AZƏRBAYCAN DÖVLƏTİNİN İLK KONSTİTUSİYASINI QƏBUL EDİRİK"

**"İndi biz müstəqil Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin ilk konstitusiyasını qəbul edirik. Bu, çox məsuliyyətli və eyni zamanda çox şərəfli vəzifədir. Bu, bizə nəsib olubdur və güman edirəm ki, biz, yəni indiki nəsil həmin şərəfli vəzifəni ləyaqətlə yerinə yetirməyə qadirik və yerinə yetirə biləcəyik... Bizim yeni konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir".**

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasındakı çıxışından (3 oktyabr 1995-ci il)*

## SAF 2025

**FESTİVALDA Azərbaycanla birgə ümumilikdə 22 ölkə təmsil olunacaq**





# “Milli dirçəliş yolu milli birlik və milli həmrəylikdən keçir”

## Milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun təntənəsi




Noyabrın 17-si Azərbaycanda Milli Dirçəliş Günüdür. Azərbaycan xalqının azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən 17 Noyabr - Milli Dirçəliş Günü ölkənin müstəqilliyinin bərpa edilməsində tarixi rol oynayıb. Mənəvi əsaslarını və başlanğıcını 1960-cı illərindən götürən bu tarix sonralar Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi ilə dönməz xarakter alıb, müstəqil Azərbaycan müasir inkişaf yoluna qədəm qoyub.

Ötən əsrin sonlarında Sovet İttifaqının iqtisadi, siyasi, mənəvi və ideoloji dayaqlarının sarsılması ilə imperiyanın siyasi “beyin mərkəzi”nin xalqlara, xüsusilə Azərbaycan xalqına qarşı yürütdüyü ayrı-seçkilik siyasəti kəskin xarakter aldı. M.Qorbaçov hakimiyyətinin dəstəyi ilə ermənilər Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başladı. Ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hissləri alovlandırdı. XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi.

Hakimiyyətə gəlişi ilə xalqa sağlam ruh və özünüdərk gətirən Ümummilli Lider Heydər Əliyev sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli-mənəvi dəyərlərə, Azərbaycan elminin və mədəniyyətinin dirçəlişinə xüsusi önəm verdi. Bütün sahələrdə inkişaf və oyanış müşahidə olunmağa başladı. Azərbaycan əsl intibah və dirçəliş dövrünə qədəm qoydu. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində təhsil alan milli ruhlu alimlər və ziyalılar ordusu yetişdi. Dahi şəxsiyyət Heydər Əliyevin respublikada yaratdığı bu mənəvi-psixoloji və iqtisadi baza təxminən 20 il sonra Sovet İttifaqı dağılmağa başlayanda xalqın dayağı oldu.

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də Ulu Öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

Bu yolda ölkəmiz böyük uğurlar əldə etdi, Cənubi Qafqazın lider dövlətinə, beynəlxalq layihələrin təşəbbüskarına çevrildi. Bütün bu nailiyyətlər, nəhayət, 2020-ci ildə 44 günlük Vətən müharibəsində ölkəmizin möhtəşəm Qələbəsini şərtləndirdi. Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdi, ərazi bütövlüyümüz bərpa olundu və haqq-ədalət öz yerini tapdı. 2023-cü il sentyabrın 19-da rəşadətli Ordumuzun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, qarşıya qoyulan hədəflərə cəmi 24 saatda nail olunması Azərbaycanın növbəti tarixi Qələbəsi ilə nəticələndi, dövlətimizin suverenliyi tam bərpa edildi və bununla ölkəmiz tarixinin yeni dövrünə daxil oldu. Bu, Prezident İlham Əliyevin qətiyyəti, müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsi, dövlətimizin başçısının ətrafında “dəmir yumruğ”a çevrilmiş xalqımızın daha bir tarixi Zəfəridir.

Eyni zamanda, bu, bir daha göstərir ki, Azərbaycan regionda prosesləri diktə edən tərəfdir, sülhün və sabitliyin əsas təminatçısıdır. Artıq regionda yeni reallıq yaranıb. Bu reallığı isə beynəlxalq nüfuzu gündən-günə güclənən, Avropanın enerji təchizatında aparıcı aktora çevrilən və dünya dövlətləri üçün etibarlı tərəfdaş olan Azərbaycan yaradıb.



# “Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır?”

## “BU, YA SƏHVDİR, YA TƏXRİBATDIR”

**“Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir. Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni, dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər”.**

*Prezident İlham Əliyevin noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyindəki çıxışından*

# 2026-CI İLİN DÖVLƏT BÜDCƏSİNDƏ TƏHSİL XƏRCLƏRİ ÜÇÜN 5 MİLYARD 15 MİLYON MANAT VƏSAİTİN AYRILMASI NƏZƏRDƏ TUTULUR

## Emin Əmrullayev Milli Məclisdə dövlət büdcəsinin müzakirəsində iştirak edib



Noyabrın 13-də Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclası keçirilib.

"Azərbaycan müəllimi" xəbər verir ki, iclasda "2026-cı il dövlət büdcəsi haqqında" Qanun layihəsi müzakirə olunub.

Müzakirələrdə elm və təhsil naziri Emin Əmrullayev, kənd təsərrüfatı naziri Məcnun Məmmədov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, maliyyə nazirinin müavini Himalay Məmişov, komitə sədrləri, deputatlar və digərləri iştirak edib.

Birgə iclasda çıxış edən Emin Əmrullayev bir sıra vacib məsələlərə toxunub, təhsilin ayrı-ayrı səviyyələri üzrə geniş məlumat verib.

"2026-cı ilin dövlət büdcəsində təhsil xərcləri üçün 5 milyard 15 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu, ümumi büdcənin 8,3 faizini təşkil edir. Sözügedən rəqəm 2025-ci illə müqayisədə 85 milyon manat və ya 1,7 faiz çoxdur.

2003-2025-ci illər ərzində 3600-dən çox məktəb binası tikilib və əsaslı təmir olunub. Bu tədbirlər nəticəsində 1,3 milyondan çox şagirdin təhsil şəraiti əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb.

"Böyük Qayıdış" Proqramı çərçivəsində 2025-ci ildə Kəlbəcər, Xocavənd, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında 5 yeni məktəbin tikintisinə başlanılıb. Son üç ildə işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 20 məktəb bərpa olunub, onların 18-i artıq fəaliyyət göstərir. Hazırda bu məktəblərdə 3500-ə yaxın şagird təhsil alır, 380 pedaqoq və 140 texniki işçi çalışır.

Gələcək illərdə keyfiyyətin artırılması məqsədilə Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Texniki Universitetinə tələbə qəbulu sayının azaldılması nəzərdə tutulur. Nəticədə bir tələbəyə düşən xərclər artacaq. Çünki orada daha yüksək keyfiyyət tələb olunur.

2025-2026-cı tədris ili üçün ali təhsil müəssisələrinə qəbul olunanların sayı ötən illə müqayisədə 10,6 faiz artıb. Əgər 2005-ci illə müqayisə etsək, bu göstərici 2,3 dəfə, 2017-ci illə müqayisədə isə təxminən 1,5 dəfə yüksəlib. Bu, ölkədə ali təhsilə marağın artdığını və təhsil imkanlarının genişləndiyini göstərir.

"SABAH" proqramı ali təhsildə keyfiyyətin artırılması baxımından uğurlu model kimi özünü doğruldub. Növbəti il üçün bu proqramlara 412 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu da 135 min nəfərin təhsil xərclərinin dövlət tərəfindən qarşılanması deməkdir.

Beynəlxalq olimpiadalarda iştirak edən 51 şagirdimiz medal qazanıb, onlardan 14-ü qızıl medalın sahibi olub. Bu, ölkəmizin ümumi təhsil sistemində keyfiyyətin artdığını göstərən mühüm göstəricidir.

Peşə təhsili sahəsinə dövlət tərəfindən ayrılan vəsait ilbəil artır. Peşə təhsili üzrə 2026-cı ilin dövlət büdcəsində 125,5 milyon manat vəsait nəzərdə tutulub. Bu, 2025-ci illə müqayisədə 23,3 milyon manat və ya 29 faiz artım deməkdir. Hazırda 76 peşə təhsili müəssisəsində yüksəldilmiş ixtisas tədrisi həyata keçirilir. Ümumilikdə tələbə qəbulu 27 min nəfəri ötüb. Onların 23,7 mini, yəni 84,3 faizi dövlət sifarişi əsasında təhsil alır. Ödənişli əsaslarla təhsil alanların sayı isə 15,3 faiz təşkil edir.

2020-ci ildən etibarən peşə təhsili müəssisələrində mərhələli şəkildə modul əsaslı tədris modelinə keçid həyata keçirilir. Hazırda 88 min 400 tələbəni əhatə edən 90-a yaxın peşə təhsili müəssisəsində bu model tətbiq olunur. Növbəti ildə bu sayın 112 min nəfərə çatdırılması planlaşdırılır. Bu məqsədlə dövlət büdcəsindən əlavə 60 milyon manat ayrılacaq və ümumilikdə bu istiqamətdə 130-170 milyon manatlıq maliyyə dəstəyi nəzərdə tutulur.

Məktəblərdə daimi və rəqabətli modelə keçid nəzərdə tutulur. Məqsəd müəllimlər üçün daha rəqabətli, dayanıqlı və ədalətli əmək sistemi formalaşdırmaqdır. Yeni model müəllimləri məcbur etməyəcək, tamamilə könüllü və rəqabətə əsaslanacaq.

Biz keyfiyyətli təhsil istəyiriksə, müəllimlərimizdən də daha yüksək standartlar tələb etməliyik. Təhsil sisteminin keyfiyyəti onun müəlliminin keyfiyyətindən yuxarı ola bilməz. Bu baxımdan müəllimlər üçün müəyyən etdiyimiz standartlar əvvəlkilərlə müqayisədə daha yüksək səviyyədə olmalıdır. Əlbəttə, bu, müəyyən çətinliklər yarada bilər, amma təhsilin inkişafı naminə bu yoldan çəkinməməliyik.

Təcrübə göstərir ki, Azərbaycan təhsil sisteminin ən həssas və eyni zamanda ən mühüm hissəsi ibtidai təhsildir. İbtidai təhsildə problemləri həll etmədən orta və ali təhsildə dayanıqlı nəticələr əldə etmək mümkün deyil. Təqribən 40-50 faiz şagird ibtidai mərhələdən sonra təhsildə davamlılıq baxımından çətinliklərlə üzləşir. Buna görə də əsas məqsədimiz ibtidai təhsilin keyfiyyətini yüksəltməkdir.

Uşağın təhsilə münasibətinin formalaşmasında ailə və ev mühiti az rol oynamır. Valideynin təhsilə yanaşması, uşağın öyrənməyə motivasiyası prosesin uğuruna birbaşa təsir edir. Ona görə də biz yalnız məktəb daxilində deyil, ailə mühitində də təhsilə dəyər verən bir mədəniyyəti təşviq etməliyik".

**Yetər KƏRİMLİ**

### Emin ƏMRULLAYEV:

**2003-2025-ci illər ərzində 3600-dən çox məktəb binası tikilib və əsaslı təmir olunub**

**Son üç ildə işğaldan azad olunmuş ərazilərdə ümumilikdə 20 məktəb bərpa olunub, onların 18-i artıq fəaliyyət göstərir**

**Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Texniki Universitetinə tələbə qəbulu sayının azaldılması nəzərdə tutulur**

**Növbəti il üçün "SABAH" proqramlarına 412 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur**

**Beynəlxalq olimpiadalarda iştirak edən 51 şagirdimiz medal qazanıb**

**Peşə təhsili üzrə 2026-cı ilin dövlət büdcəsində 125,5 milyon manat vəsait nəzərdə tutulub**

**Məktəblərdə daimi və rəqabətli modelə keçid nəzərdə tutulur**

**Biz keyfiyyətli təhsil istəyiriksə, müəllimlərimizdən də daha yüksək standartlar tələb etməliyik**

**İbtidai təhsildə problemləri həll etmədən orta və ali təhsildə dayanıqlı nəticələr əldə etmək mümkün deyil**

**Biz yalnız məktəb daxilində deyil, ailə mühitində də təhsilə dəyər verən bir mədəniyyəti təşviq etməliyik**




SAF 2025

# Festivalda Azərbaycanla birgə ümumilikdə 22 ölkə təmsil olunacaq

Elm və Təhsil Nazirliyinin dəstəyi və "STEAM Azərbaycan" layihəsinin təşkilatçılığı ilə 17-19 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində Beynəlxalq STEAM Azərbaycan Festivalı (SAF 2025) keçiriləcək.

Hazırda festivalın hazırlıq prosesi yekun mərhələsindədir. Yarışlarda iştirak edəcək komandalar final mərhələsinə hazırlıqlarını davam etdirir və layihələrini sınaqdan keçirirlər.

Bu il artıq 5-ci dəfə təşkil olunan STEAM Azərbaycan Festivalı çərçivəsində 16 əsas və 2 alt kateqoriya üzrə yarışlar baş tutacaq.

Ümumilikdə SAF 2025-də iştirak üçün 5000-dən çox namizəd qeydiyyatdan keçib. Final mərhələsinə isə 1415 iştirakçı vəsiqə qazanıb. Onların 212 nəfəri 19 xarici ölkəni təmsil edir. Beləliklə, münsiflər və beynəlxalq iştirakçılar da daxil olmaqla, festivalda Azərbaycanla birgə ümumilikdə 22 ölkə təmsil olunacaq.

Festivalın əsas məqsədi STEAM əsaslı tədrisin təşviqi, təhsilalanlar arasında XXI əsr bacarıqlarının inkişaf etdirilməsi, yaradıcı gənclərin üzə çıxarılması, eləcə də innovativ layihə və həllərin hazırlanmasının dəstəklənməsidir.

Qeyd edək ki, STEAM — beş əsas sahənin birgə və inteqrasiya olunmuş şəkildə tədrisini əhatə edən modeldir. Bu yanaşma elm (Science), texnologiya (Technology), mühəndislik (Engineering), incəsənət (Art) və riyaziyyatın (Math) birgə öyrədilməsi ideyası üzərində qurulub.

## "Yarış, öyrən, əylən"






STEAM Azərbaycan Festivalı Azərbaycanın elm və təhsil sahəsində beynəlxalq imicinin güclənməsinə, gənclərin qlobal təcrübəyə çıxışına və yeni biliklərin mənimsənilməsinə xidmət edir. Festival həm də ölkəmizin texnologiya və innovasiya mərkəzinə çevrilməsi istiqamətində atılan mühüm addımlardan biridir. O, həm gənclərdə XXI əsr bacarıqlarının inkişafına, həm də ölkədə STEAM ekosisteminin möhkəmlənməsinə töhfə verir.

SAF indiyədək dörd dəfə keçirilib və 2025-ci ildə beşinci dəfə təşkil olunacaq. Bu illər ərzində festivalda minlərlə məktəb və universitet komandası iştirak edib. Əsas nailiyyətlərdən biri ölkə üzrə STEAM hərəkatının sürətlə genişlənməsi, beynəlxalq əməkdaşlıq şəbəkəsinin qurulması və Azərbaycan gənclərinin dünya miqyasında texnologiya yarışlarında uğurla çıxış etməsi olub.

Beynəlxalq SAF 2025-in mövzusu "Beş il innovasiya, gələcəyə birgə addım" olaraq müəyyən edilib. Bu mövzu festivalın beşillik yubileyini simvolizə etməklə yanaşı, gələcəyə yönəlmiş texnoloji tərəqqini, beynəlxalq əməkdaşlığı və yeni nəsil bacarıqların inkişafını vurğulayır. Bundan başqa Festivalın devizi yenə də olduğu kimi qalır: "Yarış, Öyrən, Əylən!".

Festival müxtəlif ölkələrdən olan şagirdləri, müəllimləri, ekspertləri və alimləri bir araya gətirərək mədəniyyətlərarası dialoq və əməkdaşlıq mühiti yaradır. Burada iştirakçılar yalnız texnologiya üzrə deyil, həm də öz mədəniyyətlərini paylaşmaqla qarşılıqlı anlaşma və hörməti gücləndirirlər. Beynəlxalq tərəfdaşlıq layihələri, ortaq komandalar və qlobal şəbəkələşmə bu əməkdaşlığın əsas mexanizmlərindəndir.

Beynəlxalq STEAM Azərbaycan Festivalı illərdir ki, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda gənclərin elmi-texniki yaradıcılığını dəstəkləyən, onların komandada işləmə, problem həll etmə və yenilikçi düşünmə bacarıqlarını inkişaf etdirən mühüm bir festivaldır. Bu il də festivalın həm miqyası, həm də əhatə dairəsi genişlənərək iştirakçılara daha çox imkan təqdim edəcək.

Gələcəkdə SAF-ın coğrafiyasının daha da genişlənməsi, daha çox ölkədən iştirakçıların cəlb olunması və yeni yarış kateqoriyalarının əlavə edilməsi nəzərdə tutulur. Planlara həmçinin regionlarda seçmə mərhələlərinin keçirilməsi, onlayn iştirak imkanlarının artırılması və beynəlxalq tərəfdaşlarla daha geniş miqyaslı ortaq layihələrin həyata keçirilməsi daxildir. Uzunmüddətli perspektivdə SAF-ın regionun ən böyük elm və texnologiya platformasına çevrilməsi hədəflənir.

**Tünzalə QULİYEVA**

**Fətəli Xan Xoyski -150**



XX əsrin əvvəlləri Azərbaycan xalqının tarixində, onun milli mənlik şüurunun inkişafında, azadlıq mübarizəsinin genişlənməsində, intellektual potensialının artmasında xüsusi yer tutur. Bu dövrün ziyalıları diqqəti Azərbaycan cəmiyyətinin mədəni-maarif həyatının inkişafına, onun intellektual təbəqəsinin formalaşmasına yönəldir, milli hüquq bərabərliyi, elm, təhsil, mədəniyyət və digər sahələrdə əsaslı dəyişikliklərin aparılması ideyalarını irəli sürürdülər. Belə bir şəraitdə xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin qanunauyğun nəticəsi kimi yaranan Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlətçiliyin əsasını qoymaqla qısa zaman kəsiyində olduqca mürəkkəb ictimai-siyasi dövrdə həyata keçirdiyi işlərlə tariximizin şanlı salnaməsinə öz imzasını  qoya bildi. Bu tarixi prosesin öncüllərindən Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri və ilk Baş naziri Fətəli xan Xoyskidir.

# “Bizə sənət məktəbləri lazımdır”

## “Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm ki, istiqlaliyyətimizi elan edən zaman hökumət başında mən idim”

Prezident İlham Əliyevin 2025-ci il sentyabrın 17-də Azərbaycanın görkəmli siyasi və dövlət xadimi Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi ilə bağlı imzaladığı Sərəncam Cümhuriyyətin tarixinə, onun qurucularına olan xüsusi ehtiramın bariz nümunəsidir.

Sərəncamda qeyd edilir ki, Fətəli xan Xoyski XX əsrin əvvəllərindən milli-mədəni intibah dövrünü yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndəsidir. Geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət və böyük siyasi xadim kimi o, daim Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, İstiqlal Bəyannaməsini imzalayanlardan biridir.





Fətəli xan İsgəndər xan oğlu Xoyski 1875-ci il noyabrın 25-də Şəki şəhərində anadan olub. Savadlı və ziyalı bir ailədə böyüyən, uşaq yaşlarından elmə və tarixə maraq göstərən Fətəli xan 1892-ci ildə Yelizavetpol (Gəncə) klassik gimnaziyasını bitirib. Daha sonra Moskva Universitetinin Hüquq fakültəsinə daxil olan F.Xoyski 1897-ci ildə bu ali məktəbi birinci dərəcəli diplomla başa vurub. O, 1897-1907-ci illərdə Yelizavetpol, Kutaisi, Yekatirinodar dairə məhkəmələrində müxtəlif vəzifələrdə çalışıb. Yekaterinodar dairə məhkəməsində prokuror müavini təyin edilməsi Xoyskinin ictimai-siyasi fəaliyyətində yeni mərhələ olub. O, Yelizavetpol quberniyasından II Dövlət Dumasına deputat seçilib. Dumanın bir sıra iclaslarında çıxış edən Fətəli xan çar hökumətinin Zaqafqaziyada və Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini tənqid edib. Dumanın müsəlman deputat fraksiyasının üzvü olan F.Xoyski Rusiyanın müstəmləkəsində olan xalqlara məhəlli muxtariyyətin verilməsini hökumətdən tələb edib.

II Dövlət Duması buraxıldıqdan sonra F.Xoyski 1907-1912-ci illərdə Gəncəyə gələrək burada, 1913-1917-ci illərdə isə Bakıda dairə məhkəməsində andlı iclasçı kimi fəaliyyət göstərib. 1917-ci il Fevral inqilabından və Oktyabr çevrilişindən sonra F.Xoyskinin fəaliyyətində yeni bir mərhələ başlayıb. O, siyasi və ictimai mübarizəyə daha fəal surətdə qoşulub, qısa müddət ərzində Azərbaycan xalqının azadlığı və müstəqilliyi uğrunda aparılan hərəkatın liderlərindən birinə çevrilib. Fətəli xan Xoyski 1917-ci il martın 29-da Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilib, bu təşkilatın gərgin fəaliyyəti nəticəsində həmin ilin aprelində Bakıda çağırılan Qafqaz müsəlmanlarının qurultayında iştirak edib.

O, 1917-ci ilin dekabrında yaranan Zaqafqaziya Seyminin üzvü və 1918-ci ilin aprelində müstəqil elan edilən Zaqafqaziya Federativ Respublikası hökumətinin ədliyyə naziri olub.

1918-ci il mayın 27-də yaradılan Müvəqqəti Milli Şuranın həmin il mayın 28-də keçirilən iclasında Azərbaycanın müstəqilliyini bəyan edən akt qəbul olundu. Bu İstiqlal Bəyannaməsini imzalayan 24 nəfərdən biri F.Xoyski olub. Həmin iclasda Milli Şura F.Xoyskiyə Azərbaycan Xalq Cümhuriyyəti hökumətini təşkil etməyi tapşırıb. F.Xoyski bir saatlıq fasilədən sonra Milli Şuranın iclasına hökumətin tərkibini təqdim edib. O, burada Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının ilk Baş naziri və daxili işlər naziri vəzifələrinə təyin edilib. 1918-ci il iyunun 17-də Azərbaycan Milli Şurasının göstərişinə əsasən, Fətəli xan Xoyskinin başçılığı ilə ikinci hökumət kabineti təşkil olunub. F.Xoyski ikinci hökumətdə də Baş nazir və ədliyyə naziri vəzifələrini tutub. O çıxışında Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda mübarizənin Hökumətin başlıca vəzifəsi olacağını bəyan edib.

1919-cu ilin mart ayında Fətəli xan Xoyskinin başçılıq etdiyi hökumət istefaya çıxıb. O, Nazirlər Şurasının sədri N.Yusifbəylinin təşkil etdiyi beşinci hökumət kabinetində xarici işlər naziri olub.

Fətəli xan Xoyski Azərbaycan Cümhuriyyətinin ilk Hökumət başçısı kimi Azərbaycan istiqlalının elanı barədə dünya dövlətlərinə ünvanlanan radioteleqramı imzalayıb, 5-ci hökumət kabinetinin xarici işlər naziri olarkən isə istiqlalın Paris Sülh Konfransı tərəfindən tanınması haqqında Parlamentdə məlumat verib. Parlamentin bu məsələyə həsr olunmuş təntənəli iclasındakı (1920, 14 yanvar) çıxışında Fətəli xan Xoyski deyib: “...Bu xəbər bizdən ötrü böyük bayramdır. Bu, yalnız bizim üçün deyil, ümumi türk milləti və ümumi türk aləmi üçün böyük bir bayramdır. Böylə bir günü dərk etmək üçün qeyri-millətlər on illərlə çalışmışlar. Biz isə onu az müddətdə, bir il yarım içərisində qazandıq. Böylə az müddətdə istiqlaliyyətini alan bir millətin onu möhkəm saxlayacağına əminəm. Bugünkü bayram münasibətilə sizi hökumət tərəfindən təbrik edirəm. Özümü artıq dərəcədə xoşbəxt hesab edirəm ki, istiqlaliyyətimizi elan edən zaman hökumət başında mən idim. Və indi də təsdiqini sizə mən elan edirəm”.

Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq aləmdə və xarici dövlətlər tərəfindən tanınmasında Fətəli xan Xoyskinin əsaslı xidmətləri olub. Məhz onun dövründə Azərbaycan dövlət orqanlarının əsası qoyulub. Müstəmləkə siyasətinin rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının yenidən Gəncə və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrayıl qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycanın pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların açılmasına Xoyskinin rəhbərlik etdiyi hökumət kabinetləri dövründə həyata keçirilməyə başlanıb. Xoyski Hökuməti iyunun 27-də Azərbaycan (türk) dilini dövlət dili elan edib, iyulun 15-də daşnakların Azərbaycan xalqına qarşı törətdikləri soyqırımı vəhşiliklərini aşkara çıxarmaq məqsədilə Fövqəladə Təhqiqat Komissiyası yaradıb.

Vətənpərvər şəxsiyyət, böyük siyasi xadim, Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində yer alan Fətəli xan Xoyski Aprel işğalından (1920) sonra Tiflisə mühacirət etməyə məcbur olub. 1920-ci il iyunun 19-da Tiflisdə “Daşnaksutyun”un muzdlu erməni terrorçusu tərəfindən qətlə yetirilib və həmvətəni M.F.Axundzadənin dəfn olunduğu Azərbaycan qəbiristanlığında torpağa tapşırılıb.

Ümummilli Lider Heydər Əliyev Fətəli xan Xoyskinin Azərbaycan dövlətçiliyi tarixindəki fəaliyyətini yüksək qiymətləndirib. Heydər Əliyevin 1995-ci il 18 dekabr tarixli Sərəncamı ilə Fətəli xan Xoyskinin anadan olmasının 125 illiyinin təntənəli surətdə qeyd olunması üçün geniş heyətdə təşkilat komitəsi yaradılıb. Ulu Öndərin diqqət və qayğısı sayəsində 1996-cı il martın 9-da Tbilisi Nəbatat bağında Fətəli xan Xoyskinin məzarı üzərində xatirə abidəsi ucaldılıb. Ümummilli Lider Heydər Əliyev abidənin açılışı mərasimindəki nitqində bildirirdi: “Azərbaycan Demokratik Respublikası bir müddət burada, Tiflis şəhərində fəaliyyət göstərmiş, 1918-ci ilin iyun ayında buradan Gəncə şəhərinə və nəhayət, 1918-ci ilin sentyabrında Azərbaycanın paytaxtı Bakı şəhərinə köçə bilmişdir. O ağır və çətin dövrdə ilk Azərbaycan Demokratik Respublikasının baş naziri vəzifəsini Azərbaycanın görkəmli oğlu Fətəli xan Xoyski öz üzərinə götürmüş, bu vəzifəni layiqincə həyata keçirmiş və xalqımız qarşısında böyük xidmətlər göstərmişdir.

Azərbaycanın ilk demokratik respublikası cəmi 23 ay yaşaya bilmişdi. O, sonra devrilmiş, amma buna baxmayaraq, Azərbaycanda dövlətçiliyin, müstəqilliyin, demokratiyanın ilk carçısı olmuş, ilk addımlar atmışdır. 1991-ci ildə Azərbaycan xalqı öz milli azadlığına nail olandan və dövlət müstəqilliyini əldə edəndən sonra, şübhəsiz ki, bu şəxsiyyətlər və onların arasında Fətəli xan Xoyski öz tarixi xidmətlərinə görə bizim üçün daha da əziz, daha da yaxın olmuşlar”.

Ulu Öndər Azərbaycanda ilk demokratik respublikanın qurulmasında Fətəli xan Xoyskinin və onların silahdaşlarının böyük xidmətlərini yüksək qiymətləndirərək demişdir: “Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır”.

### Fətəli xan Xoyskinin təhsili və maarifçilik missiyası

Fətəli xan Xoyski savadlı və ziyalı bir ailədə böyüyüb, uşaq yaşlarından elmə və tarixə maraq göstərib. Aldığı yüksək tərbiyə, biliklər onun milli iradənin, milli maraqların fövqündə duran, böyük prinsipiallığı və dövlətə sədaqəti ilə seçilən şəxsiyyət kimi formalşmasına imkan verib. Fətəli xan Xoyski təhsilini əvvəlcə Tiflis klassik gimnaziyasında alıb, daha sonra isə Moskva Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib. Bu təhsil onun hüquqşünas kimi karyerasına zəmin yaratmaqla yanaşı, həm də hüquqi təfəkkürünün formalaşmasında əvəzsiz rol oynayıb. Təhsili dövründə qazandığı biliklər, hüquq və dövlətçilik sahəsindəki nəzəri hazırlığı onun sonrakı siyasi fəaliyyətində açıq şəkildə özünü göstərib. Təhsil illəri Fətəli xan Xoyskini yalnız peşəkar etməmiş, eyni zamanda milli düşüncəli bir ziyalıya çevirib. Xarakterindəki prinsipiallıq, vətənpərvərlik, xalqına və dövlətinə bağlılıq onun şəxsiyyətinin əsas xüsusiyyətlərindən olub. Millətinin maraqlarını hər şeydən üstün tutan F.Xoyski öz çıxışlarında  xalqın rifahı, maariflənməsi üçün çağırışlar edib.

### Dumada təhsil təşəbbüsləri

Fətəli xan Xoyski hələ Rusiya Dövlət Dumasının üzvü kimi burada hərbi-siyasi, hüquqi əhəmiyyət kəsb edən məsələlərlə yanaşı təhsillə bağlı müzakirələrdə fəal iştirak edib. F.Xoyski 1907-ci il mayın 18-də Dumanın 173 deputatı ilə birlikdə Dövlət Dumasına müraciət edərək dini və milliyyəti ilə bağlı siyasi və vətəndaşlıq hüquqlarında məhdudiyyətlərin ləğvi barədə əsas müddəaların layihəsini təqdim edib. Həmin layihədə dinindən və milliyyətindən asılı olaraq vətəndaşların bütün hüquq məhdudiyyətlərinin ümumi qanunlardan çıxarılmasının zəruriliyi, Rusiyanın bütün vətəndaşlarına yaşayış yeri seçmək, başqa yerə köçmək, peşə seçmək azadlığı, dövlət və ictimai qulluqda bərabər hüquqlar, şəxsiyyət toxunulmazlığı, söz, mətbuat, yığıncaq və birləşmək azadlığı, təhsil hüququ və s. verilməsi haqqında məsələ qoyulmuşdu.

Bundan əlavə, F.Xoyski Dövlət Dumasının dəftərxanasına qulluğa götürülərkən təhsil senzinin zəruriliyini qəbul edərək dövlət qulluğu senzi ilə razılaşmayıb. Onu narahat edirdi ki, ali təhsili olan, lakin heç bir dövlət qulluğunda çalışmayan, bununla yanaşı tamamilə yararlı ola bilən və şöbə müdiri yerini və başqa vəzifələri tutmaq üçün kifayət qədər praktik biliyi olan “çox böyük andlı müvəkkillər silki bütövlüklə” dəftərxanaya buraxılmaya bilərlər. Bu təklif Duma tərəfindən nəzərə alınıb və qəbul edilib.

O, Dumada fəaliyyəti dövründə bir sıra layihələrin bilavasitə təşəbbüsçüsü olub. Bu təcrübə sonralar Azərbaycan parlamentində çalışdığı müddətdə də əhəmiyyət kəsb edib.

### Savadsızlığın ləğvi, maarif sahəsində təxirəsalınmaz işlər

1918-ci il noyabrın 9-da Xoyskinin məruzəsi əsasında Cümhuriyyət Hökuməti Azərbaycanın üçrəngli bayrağını təsdiqləyib. Noyabrın 19-da Milli Şura Azərbaycan Parlamentinin yaradılması haqqında Hökumətin qanun layihəsini bəyənib. Azərbaycan Parlamentinin ilk iclası 1918-ci il dekabrın 7-də açılıb. Xoyski çox mürəkkəb tarixi şəraitdə Hökumətin fəaliyyəti barədə Parlamentə hesabat verib. Hesabatında F.Xoyski bildirirdi: “Şimdi məktəblər milliləşdilər. İbtidai məktəblər və bəzi siniflər milliləşmişlər, bir çox yeni məktəblər açılmışdır. Bundan əlavə, hökumət əldən gələn qədər çalışaraq, yox olan ədliyyə idarələrini təmdid etdi. İndi allaha şükürlər, hər yerdə olamaz isə də, bir çox ədliyyə idarələrina türk dili bilən adamlar təyin edilmişlər. Qüvvəmiz qədər vəzifəmizi ifa etdik. Hələ çox şey edə bilməmişik, amma bunu cürətlə deyə bilərəm ki, hökumətin nöqsanları ilə bərabər, yol göstərən işıqlı ulduzu bu şüar olmuşdur: “MİLLƏTİN HÜQUQU, İSTİQLALl, HÜRRİYƏTİ!”.

1918-ci il dekabrın 26-da keçirilən Parlamentin beşinci iclasında F.X.Xoyski təşkili ona tapşırılmış üçüncü hökumətin proqramı və tərkibi haqqında məruzə edib. Çıxışının əvvəlində salondakıların alqışları altında “hökumət bütün vəzifələrdən əvvəl bu istiqlaliyyəti göz bəbəyi kimi müdafiə və mühafizə etməyi özünə borc bilir” deyən Xoyski maarif sahəsində vəzifələrə toxunub. “Maarif nəzarəti hər kəsə imkan verməlidir ki, öz ana dilində məktəb açıb, oxusun. Oxumaq mənim sizin ilə danışdığım kimi olar. Maarif nəzarəti ana dilində milli məktəblərlə bərabər sənət məktəblərinə də böyük əhəmiyyət verməlidir. Çünki bizə hamıdan artıq sənət məktəbləri lazımdır”.

F.Xoyski hökumətinin əsas hədəfləri arasında ölkədə savadsızlığın ləğvi, təhsili inkişaf etdirmək, maarif sahəsində təxirəsalınmaz  işlər dururdu.

### Fətəli xan Xoyski və Bakı Dövlət Universiteti

Müstəqil Zaqafqaziya Federativ Respublikası elan olunduqda, aprelin 26-da təşkil olunmuş hökumət tərkibində F.Xoyski xalq maarifi naziri vəzifəsini tutub. F.Xoyski Azərbaycanda ali təhsil ocaqlarının yaranmasının, gələcəyə savadlı gənclərin yetişdirilməsinin vacibliyini təbliğ edib. Qısamüddətli fəaliyyəti dövründə Fətəli xan Tiflisdə yaradılması qərarlaşdırılan Avropa tipli universitetin Bakıda açılması təklifini irəli sürüb, sonralar Azərbaycan Cümhuriyyəti dövründə Bakıda universitetin açılmasında mühüm rol oynayıb. Bakı Dövlət Universitetinin ilk rektoru olmuş professor V.İ.Razumovski həmin dövrü xatırlayarkən yazmışdı: “…Qafqaz Zaqafqaziya Respublikası kimi Rusiyadan ayrıldı və gürcülərdən, ermənilərdən və türklərdən ibarət qarışıq hökumət təşkil edildi. Xalq maarifi naziri bakılı Xoyski idi. Biz Tiflisdə “rus universiteti”nin təşkili üçün apardığımız işdən istifadə etməyi həmin hökumətə təklif etdik. Nazir (Xoyski) bizi dinlədi, Qafqazda rus universitetinin təsis edilməsinə rəğbətini bildirdi, lakin əlavə edib dedi: “Bəs niyə Tiflisdə? Tiflisdə Politexnikum var, indi də gürcü universiteti… Bəlkə universiteti Bakıda açmaq daha düzgün olardı?”. O, bizim məlumat məktubumuzu nəzərdən keçirmək üçün götürdü və bizim məqsədimiz barədə Nazirlər Şurasına məlumat verəcəyini vəd etdi”.

1918-1920-ci illərin siyasi təlatümləri dövründə AXC hakimiyyətinin bütün ağırlıqlarını çiynində daşımış Fətəli xan Xoyski ölkədə ilk ali təhsil müəssisəsini yaratmaq naminə Rusiyanın iri şəhərlərinə gedib, o dövrün ən bacarıqlı alimləri ilə danışıqlar apararaq onları Bakıya köçüb işləməyə cəlb edib. Məhz onun təşkilatçılıq qabiliyyətinin sayəsində Bakı Dövlət Universiteti yarandıqdan çox qısa müddət sonra keçmiş SSRİ-də ən qabaqcıl ali məktəblərdən birinə çevrilib.

Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xoyski Hökumətinin xalqımız qarşısında əsas xidmətləri olub. Bu baxımdan Xalq Cümhuriyyətinin tarixi ilə yanaşı onun görkəmli şəxsiyyətlərinin fəaliyyətinin dərindən öyrənilməsi, ideyalarının təbliği milli təhsil sistemi qarşısında da mühüm vəzifə kimi durur.

**Oruc MUSTAFAYEV**



Kaliforniya Berkli Universitetinin kimya professoru Ömər Yaghi 2025-ci il oktyabrın 8-də San-Fransiskodan Avropaya səyahət edirdi və telefonuna zəng gələndə onun təyyarəsi Frankfurt hava limanına enmişdi. Zəng İsveçdən idi. Frankfurt hava limanında dayanan, bir əlində telefon, bir əlində baqaj olan alimə kimya üzrə Nobel mükafatına layiq görüldüyü xəbərini verdilər. Fələstin əsilli amerikalı alim qısa müddət sonra "Belə bir anı gözləyə bilməzsən", "Bu hiss təsvirolunmazdır", - dedi. 60 yaşlı Ömər Yaghi Yaponiyanın Kyoto Universitetindən olan Susumu Kitagava və Melburn Universitetindən Riçard Robsonla birlikdə metal-üzvi çərçivələrin (MOF) öyrənilməsi və tətbiqi sahəsində tədqiqatlarına görə yüksək elmi mükafata layiq görüldülər. MOF-lar zəhərli qazları tuta, kimyəvi reaksiyalar apara və səhra havasından su yığa bilən məsaməli, süngərə bənzər strukturlardır.

# "Valideynlərim mənə öyrənmənin gücünə inanmaq həvəsini aşıladılar"

## "Elm dünyada ən böyük bərabərləşdirici qüvvədir"



### Qəzzanın məşhur oğlu

Professor Ömər Yaghi 1965-ci ildə İordaniyanın Əmman şəhərindən kənarda, Qəzzanın Əl-Məsmiyyə kəndindən olan fələstinli qaçqınların ailəsində anadan olub. Valideynləri çətinliklə yazıb-oxuya bilirdilər. Ailə bir otaqda bəslədikləri mal-qara ilə birlikdə yaşayırdı. Onların təmiz suya çıxışı məhdud idi və elektrik enerjisi yox idi. Onların məhəlləsinə 14 gündə bir dəfə bir neçə saatlıq su gəlirdi. Ömər kranları açmaq üçün sübh tezdən qalxmasaydı, ailəsi, hətta inəkləri də susuz qalacaqdı.

O, səhərlər erkən saatlardan oyanardı, su təşnəsi ona qıtlıq haqqında çox şeylər öyrətdi - su kimi sadə bir şeyə ehtiyac duymaq və ona sahib olmamaq nə deməkdir.

15 yaşında ABŞ-yə getdi. İordaniyadakı dar daxmadan elmi nailiyyətin zirvəsinə gedən yol sadə deyildi, lakin Yaghinin dərindən inandığı bir şey onun yolunu işıqlandırırdı: elm haradan gəldiyinizə əhəmiyyət vermir.

Mükafata layiq görüldükdən sonra ilk müsahibəsində "Elm dünyada ən böyük bərabərləşdirici qüvvədir" dedi. Bu, onun keçmişi nəzərə alınmaqla elm və təhsil aləmində rezonans doğuran xüsusi bir bəyanatdır.

Amerikaya gələn Ö.Yaghi demək olar ki, həyatına heç nə ilə başladı. Evdə kitab, imtiyaz yoxdur. Əksər günlərdə su yoxdur. Özləri çətinliklə oxuya bildikləri üçün ev tapşırıqlarına kömək edə bilməyən valideynləri var idi.

### İlk maraq

O, hələ məktəbli ikən molekulların bir-birinə necə uyğunlaşdığını və onların birləşərkən necə də gözəl strukturlar əmələ gətirməsinə maraq kəsilmişdi. Sonralar "Kimyaçı olmağa nə vadar etdi?" sualını belə cavablandırıb: "Kəşflərin həyəcanı və molekulların gözəlliyi. 10 yaşımda məktəb kitabxanamızda təsadüfən rastlaşdığım bir dərslikdə iki molekulun (su və metan) çubuq-top şəklini görəndə molekullara aşiq oldum. Bu, mənim molekulyar təsvirlərə və naxışlara olan heyranlığıma və daha sonra məni retikulyar kimya inkişaf etdirməyə (molekulları güclü bağlarla şəbəkələrə birləşdirmək) gətirib çıxardı".

Alimə görə intellektual problemləri təkcə tətbiqlərinə görə deyil, həm də zərifliyinə görə həll etməyə dəyərdi. O, Nobel mükafatları komitəsinin əməkdaşı Adam Smitə verdiyi eksklüziv müsahibəsində "Mən gözəl şeylər tikmək və intellektual problemləri həll etmək üçün yola çıxdım. Nə qədər dərinliyə nüfuz etsən, əşyaların bir o qədər gözəl qurulduğunu görürsən" deyib.

### Amerika qaçqın dahi ilə qarşılaşır

Bu fəlsəfə onu tamamilə yeni bir sahə icad etməyə vadar etdi. Retikulyar kimya molekulyar tikinti bloklarının uzadılmış kristal strukturlara bağlanması ilə məşğul olur. Bunu molekulyar arxitektura, o qədər kiçik miqyasda çərçivələr qurmaq kimi düşünün ki, onlar nanometrlərlə ölçülməlidir, lakin xüsusi tapşırıqları yerinə yetirə biləcək qədər dəqiq şəkildə qurulmuşdur. Ö.Yaghi tərəfindən irəli sürülən metal-üzvi çərçivələr məsaməliliyi ilə diqqəti çəkir. Onlar əsasən boşluqdan ibarətdir, bu da onları inanılmaz dərəcədə yüngül, lakin struktur cəhətdən sabit edir. Daha da əhəmiyyətlisi, bu boşluq xüsusi molekulları - zəhərli qazları, karbon qazı və su buxarını tutmaq üçün dizayn edilə bilər. Bu, İordaniyadakı uşaqlıq səhərlərinə geri dönən su tətbiqidir. O, süngər kimi fəaliyyət göstərən və havadan su buxarını çəkə bilən metal-üzvi çərçivə hazırlamağa davam etdi. Bu texnologiya Yaghi ailəsinin bir zamanlar yaşadığı eyni mübarizələrlə üzləşən insanlar kimi su sıxıntısı olan bölgələrdə milyonlarla insanı su ilə təmin edə bilər.

Bir vaxtlar atasının mal-qara otardığı kasıb bədəvi kəndi, Qəzzadakı dözülməz həyat şəraiti onun yaddaşında silinməz izlər buraxıb. Ö.Yaghi nadir hallarda öz keçmiş yaşantıları ilə bağlı hər hansısa böyük siyasi bəyanatlar verir. Ona ehtiyac yoxdur. Onun müasir elmə töhfəsi sərhədlər aşır.

Rəqəmlər bu genişliyi əks etdirir. Alimin müxtəlif elmi jurnallarda 300-dən çox məqaləsi dərc olunub. Məqələlərinə 250 mindən çox sitat var, H-indeksi 190-dır. Bu da onun 190 məqaləsinin hər birinə ən azı 190 dəfə istinad edildiyini bildirir. Bu, onu dövrümüzün ən təsirli alimləri sırasına qoyan təsir ölçüsüdür.

Berklidəki tələbələri üçün Ö.Yaghi inanılmaz dərəcədə təvazökar müəllim olaraq qalır. Həmkarları üçün isə o elmdə yeni cığırın sakit pioneridir. Yurdlarından didərgin düşmüş fələstinli qaçqınlar üçün isə Yaghi belə bir həqiqəti xatırladır ki, köçkünlük təkcə itkilər gətirmir, həm də insanın yoluna işıq sala bilər.

### "Elm maraq, əzmkarlıq və təcrübə üçün cəsarət tələb edir"

Ö.Yaghi 2024-cü ildə nanoməsaməli çərçivə materiallarının kəşfinə və inkişafına, onların karbon tutma, hidrogen anbarı və səhra havasından su yığımında tətbiqlərinin təkmilləşdirilməsinə əsaslı töhfələrə görə Balsan mükafatına layiq görülüb. O, nanoməsaməli materialların iki geniş sinfini yaradaraq təməl dizayn prinsiplərini və innovativ sintetik üsulları inkişaf etdirib: metal-üzvi çərçivələr (MOF) və kovalent üzvi çərçivələr (COF). Bu qabaqcıl materiallar indi planetimizin üzləşdiyi kritik davamlılıq və ekoloji problemlərin həlli üçün qlobal səylərin önündə gedir.

Ömər Yaghinin mükafatlandırma mərasimindəki çıxışına diqqət yetirək. Bu çıxış onun elm sahəsində alimlik missiyasını tam əks etdirir:

*"Elm qüdrətli bir qüvvədir - mənşəyindən asılı olmayaraq hər kəsi nailiyyətlərin zirvəsinə yüksəldə bilər. Elm sərvət və ya imtiyaz tələb etmir; maraq, əzmkarlıq və təcrübə üçün cəsarət tələb edir. Bir çox cəhətdən bu, ən yaxşı ekvalayzerdir. Bu, imkansızların parlaya bildiyi bir sahədir, burada yeganə məhdudiyyətlər özümüzə qoyduğumuz məhdudiyyətlərdir.*

*Mən qaçqın ailəsində anadan olmuşam və qorxulu ehtimallarla üzləşən bir çoxları kimi, uğura aparan yol əlçatmaz idi. Bizim çox az şeyimiz var idi və valideynlərim formal təhsillərinin olmamasına baxmayaraq, bizi təmin etmək üçün yorulmadan çalışırdılar. Bununla belə, qeyri-müəyyənlik qarşısında belə, onlar mənə irəliləməyə davam etmək, bilik axtarmaq və öyrənmə gücünə inanmaq həvəsini aşıladılar.*

*Həyatımdakı fasilə hələ on yaşım olanda baş verdi: məktəbimin kitabxanasına girdim və kimyəvi strukturların rəsmlərini tapdım. Bu rəsmlər çoxları üçün sadə və təvazökar idi, amma mənim üçün onlar imkanlara giriş qapıları idi. Bu təsadüfi qarşılaşma kimyaya ömürlük sevgiyə səbəb oldu və bu, mənə xatırlatdı ki, başlanğıc etmək üçün mükəmməl şəraitə ehtiyac yoxdur, sizə lazım olan imkan, hətta ən kiçik də olsa, ona əməl etmək əzmidir.*

*Elmə olan həvəsimi davam etdirmək üçün ideal şəraiti gözləmirdim, gözləməyə imkanım yox idi. Bunun əvəzinə özümü işə qərq etdim, öyrəndim, təcrübə apardım və irəlilədikcə kəşf etdim. Zaman keçdikcə həvəsim məni kimya və materiallar haqqında düşüncə tərzimizdə inqilab edən yeni materiallar - MOF, COF və ZIF-lər yaratmağa vadar etdi. Bu kəşflər artıq təhlükəsiz mühit üçün təmiz hava, təmiz enerji və təmiz suya əhəmiyyətli təsir göstərir.*

*Bu səyahət mənə elmin gücünün dəyişdirici olduğunu öyrətdi. Elm onunla məşğul olmağa, həyatı dəyişdirməyə və gələcəyi formalaşdırmağa cəsarət edən hər kəsi yüksəldə bilər. Harada başlamağınızdan asılı olmayaraq, elmi kəşf sizə yüksəlmək üçün alətlər verir. Ancaq elmin həmişə onun ardınca gedənlərdən tələb etdiyi başqa bir şey də var: evi tərk etmək, naməlumluğa cəsarət etmək və sevdiklərinizlə yaxınlığın rahatlığını qurban vermək cəsarəti. Tarixən elm adamları bilik dalınca sərhədləri və qitələri aşaraq səyahət edən, mühacir və axtaran olublar. Onlar dünyanı dərk etmək və onun sirlərini həll etmək istəyi ilə idarə olunan ailələrini, evlərini və tanışlarını geridə qoyublar. Mən də bu yolda olmuşam. Məndən əvvəlki bir çoxları kimi mən də illərimi evdən uzaqda, sevdiyim insanlardan uzaqda keçirmişəm, çünki bilik axtarışı bizi tez-tez bütün dünyaya aparır. Bir çox cəhətdən bu, elmin reallığıdır - bizi rahatlıq və tanışlıq sərhədlərindən kənara, kəşflərin gözlədiyi yerlərə çağıran bir axtarışdır. Məhz bu uzaq ölkələrdə, yeni ideyalar və mədəniyyətlər arasında biz təkcə elm adamı kimi deyil, insan kimi də böyüyürük. Bu gün burada dayanarkən, mən bu mükafatı təkcə özüm üçün deyil, başlanğıclarının fərq yaratmaq üçün çox təvazökar olduğunu hiss edən hər kəs üçün qəbul edirəm. Mənim hekayəm ən qeyri-adi başlanğıclardan belə əlamətdar şeylərin yarana biləcəyinin sübutudur. Elm bu fürsəti hamıya təqdim edən yoldur. Mən hamımızın gələcək nəsillər qarşısında məsuliyyətimizi vurğulamaq istəyirəm. Dünyanın hər yerindən daha çox alim lazımdır və gələcək nəsli ruhlandırmaq və dəstəkləmək bizim üzərimizdədir. Buna görə də mənim tədqiqat qrupum Vyetnam, Malayziya və İordaniya kimi ölkələrdə - imkanların az ola biləcəyi, lakin kəşf qığılcımının həyatı dəyişdirə biləcəyi yerlərdə mərkəzlər yaratdı. Elm mənim yolum olub və indi başqalarının da yolu olmasını istəyirəm. Bu gün burada olan hər kəsə öz dərin minnətdarlığımı bildirirəm. Gəlin birlikdə kəşf etməyə, təcrübə aparmağa və kəşfin gücünün hamı üçün əlçatan olmasını təmin etməyə davam edək".*

### "İstedadlı insanlara imkanlar verməklə onların potensialını açmağa diqqət yetirməliyik"

Ömər Yaghi "Ağıllı insanlar, istedadlı insanlar, bacarıqlı insanlar hər yerdə var. Buna görə də biz həqiqətən onlara imkanlar verməklə onların potensialını açmağa diqqət yetirməliyik" deyir. O, Nyu York-Albani Dövlət Universitetində bakalavr dərəcəsini (1985), İllinoys-Urbana Universitetində (1990) PHD elmi dərəcəsini alıb. Arizona Dövlət Universitetində (1992-98), Miçiqan Universitetində (1999-2006) və UCLA-da (2007-2011) çalışıb. Hazırda Kaliforniya Berkli Universitetinin professoru və Lavrens Berkli Milli Laboratoriyasının baş alimi, Berkli Qlobal Elm İnstitutunun təsisçi direktorudur. O, həmçinin "Kavli Energy NanoScience" İnstitutunun və BASF tərəfindən Kaliforniya Tədqiqat Alyansının həmdirektorudur.

Onun yeni materialların dizaynı və sintezi sahəsində ilk nailiyyətləri Amerika Kimya Cəmiyyətinin və Exxon Co.-nun Bərk Cism Kimya Mükafatı (1998) və İtaliya Kimya Cəmiyyətinin Sakkoni Medalı (2004) ilə təltif edilib. Hidrogenin saxlanması üzrə işi ABŞ-də "Brilliant 10" alim və mühəndis sırasına daxil edən "Popular Science Magazine" (2006) və hidrogen saxlanmasına böyük töhfələrə görə ABŞ Enerji Departamentinin Hidrogen Proqramı Mükafatı (2007) tərəfindən tanınıb. O, metal-üzvi çərçivələrin nəzəriyyəsi, dizaynı, sintezi və tətbiqi sahəsində qabaqcıl işlərə görə "Materials Research Society" medalının və elmdə dərc olunan ən yaxşı məqaləyə görə "AAAS Newcomb Klivlend" mükafatının yeganə laureatı olub (2007). Amerika Kimya Cəmiyyətinin Materiallar Kimyası Mükafatının (2009), İzatt-Kristensen Beynəlxalq Mükafatının (2009), Birləşmiş Krallığın Kral Kimya Cəmiyyətinin Yüzillik Mükafatının (2010), Çin Nano Mükafatının (2013), Elm üzrə Kral Faysal Beynəlxalq Mükafatının (2015) laureatıdır. Çin, Cənubi Koreya, Vyetnam, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliklərinin universitetlərində 10-dan çox görkəmli professor vəzifəsinə malikdir. Dünyada ən çox istinad edilən ilk beş kimyaçıdan biridir.

...Bir vaxtlar sızan bir kranın altına vedrələr düzən oğlan indi havanı özü qablaşdırır.

**Oruc MUSTAFAYEV**



# "Universitet oxumaq xəyalım idi"

## Aytac Ağalarovanın uğur hekayəsi

### Təhsil krediti ilə universitet xəyalını gerçəkləşdirdi

Aytac Ağalarova Bakıdakı Vüqar Əvəzov adına 300 nömrəli tam orta məktəbdə ümumi orta təhsilini tamamladıqdan sonra Azərbaycan Memarlıq və İnşaat Universiteti nəzdində İnşaat Kollecinə qəbul olub. "İnformasiya texnologiyaları sistemləri" ixtisası üzrə 2020-ci ildə aldığı təhsil sənədi ona eyni ixtisas üzrə subbakalavr kimi Odlar Yurdu Universitetinə müsabiqədənkənar qəbul imkanı verib. O da bunu fürsət olaraq dəyərləndirib: "Kollecdə orta müvəffəqiyyət göstəricim 83 bal idi. Bu da yalnız ödənişli əsaslarla təhsilimi davam etdirməyə imkan verirdi. Universitet oxumaq xəyalım idi. Xəyalımı ancaq bu yolla gerçəkləşdirə bilərdim. Ailəm imkansızlığımıza baxmayaraq, bu arzumu gerçəkləşdirməyimə dəstək verdi və mən eyni ixtisas üzrə təhsilimi ödənişli əsaslarla davam etdirdim".

### Tyutorlardan eşitdiyi xəbər ona dəstək olub

İlk yarım ilin ödənişini ödəyib, ikinci yarımil üçün banka müraciət etməli olacaqdı ki, universitetdə tyutorlardan eşitdiyi xəbər ona dəstək olub: "Heç tərəddüd etmədim, dərhal Təhsil Tələbə Krediti Fonduna müraciət etdim. Çünki təhsil krediti olmasaydı, bankdan kredit götürməli olacaqdım".

Beləliklə, 2021-ci ilin yanvar ayında Təhsil Tələbə Krediti Fonduna müraciəti müsbət qarşılanıb: "Müraciətimə müsbət cavab verildi. Mənə standart təhsil tələbə krediti təyin edildi və vəsait universitetin hesabına köçürüldü. Dördüncü kursa qədər kreditdən yararlandım və deyə bilərəm ki, mənə çox böyük kömək oldu. Təhsilimi rahat şəkildə davam etdirmək üçün bu sistem, sözün əsl mənasında, mənim üçün bir xilas yolu idi".

Aytac deyir ki, Təhsil Tələbə Krediti Fondu, sadəcə təhsil haqqını ödəyərək xilas etməyib onu: "Fondun fəaliyyətinin başqa faydaları da var. Məsələn, Fond ödənişsiz kurslar da təşkil edir. Mən təhsil aldığım vaxt İKT üzrə kurs təşkil edildi".

### Universiteti bitirəndə 25 faiz güzəşt

Aytac artıq universitet məzunudur: "2024-cü ildə universiteti 91+ ortalama ilə bitirdim. Ümumi orta müvəffəqiyyət göstəricimə görə Təhsil Tələbə Krediti Fondu 25 faiz güzəşt tətbiq etdi".

A.Ağalarova geri ödənişə məzun olan kimi başlayıb: "Universiteti bitirdikdən sonra ilk iş yerim elə Odlar Yurdu Universiteti oldu. Bir müddət orada tyutor vəzifəsində çalışdım. Artıq başqa bir özəl müəssisənin "Qeydiyyat" bölməsində çalışıram. Krediti 10 il müddətinə bağladığımız müqavilə ilə geri ödəyirəm. Ödəmə müddəti böyük olduğu üçün çətinlik çəkmədən borcumu ödəyirəm".

### Təhsil krediti stimullaşdırır

O təhsil kreditini həyatının ən böyük fürsəti hesab edir: "Təhsil tələbə krediti dövlətimizin biz gənclərə yaratdığı çox böyük fürsətdir. Hər gənc bu fürsətdən yararlanmalıdır. Nəinki aşağı faizlə borc götürür, borcun müəyyən faizini, hətta yarısını güzəştlə geri qaytarmaq imkanı da verilir və bu, daha yaxşı oxumaq, daha böyük uğurlar qazanmaq üçün insanı stimullaşdırır".

**Ruhiyyə DAŞSALAHLI**

# “Gənclərimizi ortaq hədəflərimiz üçün gələcəyə hazırlayacağıq”

## Yusuf TEKİN:

## “İki ölkə arasında təhsil sahəsində əməkdaşlıq artıq güclü bir bazaya malikdir”



Türkiyənin milli təhsil naziri Yusuf Tekin “Azərbaycan müəllimi” qəzetinə müsahibə verib. O, müsahibədə Türkiyə və Azərbaycan arasında təhsil sahəsində əməkdaşlığın inkişaf istiqamətlərindən danışıb. Həmin müsahibəni təqdim edirik.

*- “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlığa dair” sazişə görə, bu gün hər iki ölkə hansı sahələrdə daha effektiv əməkdaşlıq edir?*

- Əvvəlcə, iki qardaş ölkənin təhsildəki ortaq təcrübəsini paylaşmağımıza vasitəçi olduğunuz üçün sizə təşəkkür edirəm. Sualınıza gəldikdə isə bildirim ki, bu gün ibtidai təhsildən ali təhsilə qədər geniş bir çərçivədə birgə hərəkət edirik: Azərbaycanda orta təhsil pilləsində təxminən 2500 şagirdimizə təhsil xidməti göstərilir, 5 minə yaxın vətəndaşımız ali təhsil alır. Türkiyədə isə təxminən 45 min azərbaycanlı tələbə bakalavriat, magistratura və doktorantura proqramları üzrə oxuyur. Bu mənzərə həm əhatə dairəsi, həm də keyfiyyət üzrə ortaq potensialımızın qarşılıqlı şəkildə gücləndiyini göstərir.

Peşə və texniki təhsil əməkdaşlığımızın strateji tərkib hissələrindən biridir. 2022-ci ildə başlanan “Peşə təhsili müəssisələri arasında müəllim mübadiləsi proqramı və tətbiqi təhsil əməkdaşlığı” çərçivəsində avtomobil texnologiyaları, elektrik-elektronika və informasiya texnologiyaları kimi sahələr üzrə dərs deyən müəllimlərin qarşılıqlı mübadiləsi oldu. Türkiyədən olan mütəxəssis müəllimlər Azərbaycandakı dərslərdə iştirak etdi, azərbaycanlı müəllimlər isə sənaye bölgələrindəki peşə liseylərimizdə təcrübə və müşahidə keçdilər. Kurikulum uyğunluğu üçün ortaq işçi qrupları yaradıldı, emalatxana və laboratoriya tətbiqlərində yaxşı nümunələr paylaşıldı. Bu təcrübələr ortaq standart yaratmaq potensialımızı və insan resurslarımızın hərəkətliliyini real şəkildə artırdı.

*- Sizcə, hansı sahələrdə əməkdaşlığın daha da gücləndirilməsinə ciddi ehtiyac var?*

- Hədəfimiz qarşımızdakı dövrdə əməkdaşlığı daha da möhkəm bir əsas üzərində qurmaqdır. Bakı ilə yanaşı, əhalinin sıx yaşadığı digər şəhərlərdə yeni məktəblər açaraq təhsilə çıxışı genişləndirmək, müəllim mübadiləsini illik təqvimə və ümumi səriştə meyarlarına əsaslanaraq institusional şəkildə formalaşdırmaq, peşə sahələrində ortaq modullar hazırlayıb qiymətləndirmə vasitələrini uyğunlaşdırmaq niyyətindəyik.

*- Bəs planlar nələrdən ibarətdir? Növbəti addımlar müəyyən edilibmi?*

- Gələcək planlarımız konkret və proqramlaşdırılmış addımlardan ibarətdir.

Hazırda fəaliyyətini davam etdirən Bakı Türk Anadolu Liseyini və yeni açılmış Əhmədli filialındakı məktəbi ölkəmizdəki təcrübəyə uyğun şəkildə imtahanla şagird qəbul edən təmayüllü liseylərə - təbiət elmləri liseyi, sosial elmlər liseyi və “xüsusi proqram və layihə” statusuna malik təhsil müəssisələrinə çevirməyi planlaşdırırıq. Bununla biz həm akademik nailiyyətləri gücləndirəcək, həm də “Türkiyə Yüzili Maarif Modeli” istiqamətində həyata keçiriləcək proqramlar vasitəsilə şagirdlərimizi bu modelin mahiyyətində duran dəyərlər əsasında yetişdirəcəyik.

Digər tərəfdən, peşə və texniki təhsil üzrə əməkdaşlıq da prioritetlərimiz sırasındadır.

“Türkiyə-Azərbaycan peşə təhsili sahəsində əməkdaşlıq protokoluna dair Əlavə Protokol”u budəfəki səfərimizdə imzaladıq. Bu çərçivədə Azərbaycandakı mövcud iki məktəbin peşə təhsil müəssisəsi kimi təşkil olunması və türk tərəfinin dəstəyi ilə yeni müəssisələrin açılması barədə razılığa gəldik.

Əlavədə yer alan “Peşə təhsili müəssisələri çərçivə təlimatı”na uyğun olaraq, birgə təhsil veriləcək müəssisələrdə reallaşdırılacaq fəaliyyətlərin ümumi çərçivəsini müəyyən etdik. Bu müəssisələrdə informasiya texnologiyaları, qonaqpərvərlik və turizm xidmətləri, mebel və interyer dizaynı, moda dizayn texnologiyaları, qida, xidmət sahələri üzrə təhsil veriləcəyi nəzərdə tutulur.

Son səfərimiz zamanı imzaladığımız əlavə protokolla bu prosesi daha da irəliyə apardıq. Beləliklə, həm akademik, həm də peşə sahəsindəki təcrübələrimizi Azərbaycanla paylaşaraq gənclərimizi ortaq hədəflərimiz istiqamətində gələcəyə hazırlamağa davam edəcəyik.

*- Azərbaycana bu yaxınlarda etdiyiniz səfər iki ölkənin təhsil sahəsindəki əməkdaşlığına, sizcə, necə təsir göstərəcək?*

- Bu vəzifənin icrasına başladığım gündən Azərbaycanla təhsil sahəsində əməkdaşlığı hər zaman prioritet hesab etmişəm. Rektor olduğum dövrlərdə olduğu kimi, nazir vəzifəsində də bu qardaşlıq bağlarını gücləndirmək üçün çalışdım. Nazir təyin olunduqdan sonra - 2,5 il ərzində Azərbaycanı üç dəfə ziyarət edərək bu sahədə aparılan ortaq layihələri yerində araşdırma və yeni addımlar üzərində müzakirə etmək imkanı qazandım.

Son səfərimizdə çox məhsuldar görüşlər keçirildi. Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev ilə aparılan müzakirələr nəticəsində “Təhsil sahəsində əməkdaşlıq razılaşmasına Əlavə Protokol” və “Peşə təhsili sahəsində əməkdaşlığa dair protokola Əlavə Protokol” imzalandı.

Bu razılaşmalar həm peşə təhsili müəssisələrimizin gücləndirilməsinə, həm də Bakıdakı türk təhsil müəssisələrinin fiziki infrastruktur ehtiyaclarının ödənilməsinə əhəmiyyətli töhfə verəcək. Eyni zamanda, Azərbaycanın Türkiyədə yaratmağı planlaşdırdığı beynəlxalq xüsusi təhsil müəssisəsi üçün bina ayrılması prosesi də rəsmiləşdirildi. Qarşılıqlı məktəb açılışlarında inzibati koordinasiya və hüquqi dəqiqlik təmin olundu. Beləliklə, iki ölkə arasında əməkdaşlıq daha konkret, miqyaslana bilən, davamlı bir səviyyəyə çatdırıldı.

*- Növbəti tədris ilində İstanbulda ilk dəfə Azərbaycan məktəbi fəaliyyətə başlayacaq. Türkiyə dövləti bu məktəbin fəaliyyətinə necə dəstək verəcək?*

- Türkiyədə açılacaq ilk Azərbaycan məktəbi iki ölkə arasındakı qardaşlığın simvolu olacaq. Dövlət olaraq, bu müəssisədə ən yaxşı şəraitdə təhsil verilməsini təmin edəcəyik.

**“Ortaq modullar hazırlayıb qiymətləndirmə vasitələrini uyğunlaşdırmaq niyyətindəyik”**

**“Bakı Türk Anadolu Liseyini və yeni açılmış Əhmədli filialındakı məktəbi təmayüllü liseylərə çevirməyi planlaşdırırıq”**

**“Azərbaycanla əməkdaşlığı hər zaman prioritet hesab etmişəm”**

**“Azərbaycan məktəbi ortaq tarix və mədəniyyətimizə əsaslanan keyfiyyətli təhsil mühiti təqdim edəcək”**

**“Qarabağda bütün təhsil layihələrinə dəstək verməyə hazırıq”**

**“Mübadilə proqramlarını daha da çeşidli etməyi nəzərdə tuturuq”**

**“Peşə təhsili üzrə əməkdaşlıq konkret addımlarla irəliləyir”**

**“Ortaq proqramların hazırlanması imkanları artırılıb”**

**“Bu məsələlər yalnız Azərbaycan üçün deyil, dünyanın bütün təhsil sistemləri üçün ortaq gündəmdir”**

Ehtiyacların qarşılanması çərçivəsində torpaq ayrılması da daxil olmaqla fiziki infrastruktura dair bütün lazımi dəstəyi göstərəcəyik. Təhsil proseslərinin nizamlı və sağlam şəkildə həyata keçirilməsi üçün müvafiq dövlət qurumları ilə koordinasiya quraraq məktəbin fəaliyyətini dəstəkləyəcəyik.

Türkiyədə açılacaq bu ilk Azərbaycan məktəbi iki ölkə arasındakı dostluğun güclü bir simvolu olacaq və şagirdlərinə ortaq tarix və mədəniyyətimizə əsaslanan keyfiyyətli təhsil mühiti təqdim edəcək.

Bu məktəbdə Azərbaycan milli tədris planı tətbiq olunacaq və təhsil Azərbaycan dilində aparılacaq. Ölkəmizdəki digər beynəlxalq məktəblərdə olduğu kimi, bu məktəb də qanunvericilik çərçivəsində nəzərdə tutulmuş hüquq və imkanlardan istifadə edəcək.

*- Türkiyə Qarabağ bölgəsində təhsil infrastrukturunun inkişafına necə dəstək verir?*

- Qarabağ bölgəsində Azərbaycanın Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində bütün təhsil növləri və pillələri üzrə planlaşdırılan layihələrə dəstək verməyə hazırıq.

*- Şagird, tələbə və müəllim mübadilə proqramları ilə bağlı hansı yeniliklər planlaşdırılır?*

- Hazırda peşə təhsili sahəsindəki əməkdaşlıq çərçivəsində qarşılıqlı müəllim və şagird mübadilə proqramlarımız davam edir. Bundan əlavə, ali təhsil səviyyəsində də bakalavr tələbələri və akademik heyət üçün mübadilə proqramları həyata keçirilir. Gələcəkdə bu proqramları daha da çeşidli edərək iki ölkənin təhsil müəssisələri arasında əlaqəni gücləndirməyi nəzərdə tuturuq.

*- Peşə təhsili sahəsində iki ölkə arasındakı əməkdaşlıq hansı istiqamətlərdə inkişaf etdirilir?*

- Türkiyə və Azərbaycan arasında peşə və texniki təhsil sahəsində institusional əməkdaşlıq mövcuddur. Protokollarla çərçivəsi müəyyən edilən bu əməkdaşlıq məktəblərin uyğunlaşmalarından proqram inkişafı və müəllim təlimlərinə qədər olan konkret addımlarla irəliləyir.

Əvvəlcə qardaş məktəb modeli tətbiq edildi: Baş İdarəmizə bağlı 16 peşə və texniki təhsil müəssisəsi Azərbaycan tərəfdaşları ilə uyğunlaşdırıldı. 19 fevral 2021-ci il tarixli “Peşə təhsili sahəsində əməkdaşlığa dair protokol” bu koordinasiyanı davamlı bir baza üzərinə qoydu.

2021-ci ilin noyabrında informasiya texnologiyaları, mebel və interyer dizaynı, qonaqpərvərlik və turizm xidmətləri, qida-xidmət sahələrinin həftəlik dərs cədvəlləri hazırlanıb Azərbaycan tərəfinə təqdim edildi. 22-24 iyun 2022-ci ildə Bakı və Qəbələdə sahə ziyarətləri aparılaraq atelye və laboratoriyaların qurulması üçün texniki tövsiyələr verildi. 29 may-2 iyun 2023-cü ildə Azərbaycanda keçirilən seminar çərçivəsində bu sahələr üçün tədris proqramları tamamlandı; eyni dövrdə Baş İdarəmizin rəhbərliyindəki heyət proqram inkişafı təqdimatları etdi və açılması planlaşdırılan məktəbləri yerində yoxladı.

Müəllim təlimləri də əməkdaşlığımızın mərkəzindədir. 2021-ci il oktyabr - 2023-cü il iyun aylarında 97, 2024-cü il noyabr - 2025-ci il iyul aylarında isə 67 azərbaycanlı atelye və laboratoriya müəlliminə Türkiyədə təlimlər keçirildi.

Son səfərimizdə hörmətli nazir Emin Əmrullayev ilə peşə təhsili gündəmini müzakirə etdik, Qarabağ Universitetində imzalanan əlavə protokol ilə əməkdaşlığı dərinləşdirdik. Beləliklə, məktəb uyğunlaşmaları, proqram və dərslik işləri, müəllim təlimləri və infrastruktur hazırlıqları ilə bağlı əməkdaşlıq tam şəkildə irəliləyir, protokollarla dəstəklənən bu proses iki ölkənin peşə və texniki təhsil imkanlarına birbaşa töhfə verir.

*- Təhsil sahəsində ortaq proqramların hazırlanması və tətbiqi ilə bağlı hansı layihələr həyata keçirilir?*

- 19 fevral 2021-ci il tarixində imzalanan “Türkiyə və Azərbaycan hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol” çərçivəsində Azərbaycandan gələn müxtəlif səviyyəli təhsil işçiləri üçün xidmət üzrə təlim seminarları təşkil edildi. İlk təlim 2021-ci ilin oktyabrında İstanbul və İzmirdə 31 nəfərə, ikincisi 2022-ci ilin oktyabrında Ankara, Antalya, Bursa, İstanbul və İzmirdə 36 nəfərə, üçüncüsü 2023-cü ilin may-iyun aylarında Antalya, Bursa, İzmir və İstanbulda 40 nəfərə keçirildi.

Dördüncü proqram çərçivəsində Azərbaycanın peşə təhsili mərkəzlərindən olan 51 nəfər İzmir, İstanbul, Ankara, Antalya və Bursa şəhərlərində iki həftəlik praktik təlim keçdi. Təlimlər Ankara (10-21 fevral 2025), Antalya və Bursa (7-18 aprel 2025), Bursa (5-16 may 2025), İstanbul (4-18 may 2025) və İzmir (30 iyun-16 iyul 2025) şəhərlərində müvafiq tarixlər arasında uğurla tamamlandı.

Bu proqramlarla yanaşı, iki ölkənin təhsil müəssisələri arasında ortaq məzmunların hazırlanması, dərsliklərin uyğunluğunun təmin edilməsi və peşə sahələrində təcrübə paylaşımı kimi layihələr həyata keçirildi. Beləliklə, ortaq proqramların hazırlanması imkanları artırılıb.

*- Sizcə, Azərbaycan və Türkiyə arasında təhsil sahəsində daha hansı mövzular müzakirə edilməlidir?*

- İki ölkə arasında təhsil sahəsində əməkdaşlıq artıq güclü bir bazaya malikdir. Bu gün masaya qoyulması vacib olan əsas məsələlər məktəb ilə iş dünyası arasında bacarıq uyğunluğunun gücləndirilməsi, rəqəmsal alətlərin dərslərdə düzgün və təhlükəsiz tətbiqi, təhsildə süni intellekt texnologiyalarının səmərəli, etik və təhlükəsiz şəkildə istifadəsi, müəllimlərin yeni metod və texnologiyalara çıxışının təmin olunması, peşə proqramlarının iş imkanları ilə nəticələnməsi, ali təhsildə diplomların tanınması və keyfiyyət təminatı ilə akademik dürüstlüyün qorunması, iki ölkənin türk dili arasında terminoloji uyğunluğun təmin edilməsi, xüsusi qayğıya ehtiyac duyan şagirdlər üçün inklüziv tədbirlərin hazırlanması və fəlakət və böhran dövrlərində təhsilin davamlılığıdır. Bu çərçivədə, xüsusilə süni intellekt əsaslı öyrənmə texnologiyaları sahəsində Türkiyə olaraq son dövrdə mühüm addımlar atdıq. Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz ilə birlikdə təqdim etdiyimiz “Təhsildə Süni İntellekt üzrə Siyasət Sənədi (2025-2029)” bu sahədəki yanaşmamızı ortaya qoydu. Sənəd ilə müəllim təlimindən qiymətləndirməyə, öyrənmə analitikasından məlumat təhlükəsizliyinə qədər olan geniş çərçivədə süni intellektin təhsilə inteqrasiyası planlaşdırıldı.

Bu baxışı dəstəkləyən institusional qaydaları da hazırladıq və “Süni intellekt tətbiqləri üzrə etika qaydaları” sənədi ilə bütün layihələrimizin etik çərçivədə həyata keçirilməsini təmin etdik, həmçinin “Süni intellekt etikası üzrə tövsiyələr” adlı vəsait vasitəsilə müəllimlərə, rəhbərlərə yol göstərəcək etik prinsipləri ictimaiyyətlə bölüşdük.

Nazirlik olaraq texnoloji inkişafları təhsilə inteqrasiya etməyə xüsusi diqqət yetiririk. Bu sahədə infrastruktur gücləndirilir, şagird və müəllimlər üçün texnologiyanın inkişafına yönəlmiş fəaliyyətlər həyata keçirilir. Təhsil texnologiyaları sürətlə inkişaf edir. Biz də bu inkişafı yaxından izləyərkən insani və mədəni dəyərləri unutmamağa diqqət edirik.

Bütün bu məsələlər yalnız Azərbaycan və Türkiyə üçün deyil, demək olar ki, dünyanın bütün təhsil sistemlərinin ortaq gündəmidir. Buna görə də gələcəkdə bu mövzularda birlikdə atacağımız konkret addımlar təhsil əməkdaşlığımızı daha mənalı və davamlı edəcək.

**İlhamə İSABALAYEVA**

# Yeni pedaqoji təfəkkür işığında: düşündürən məqamlar

**(Əvvəli qəzetin 26 oktyabr tarixli sayında)**



## XXI əsrin təhsil fəlsəfəsi

### İnnovativ məzmunun başlıca şərtləri

İnnovativ pedaqogikanın uğuru yalnız metodlarda və texnologiyalarda deyil. Həmçinin öyrənilən məzmunun özündə də bu yeniliklərin olması zəruridir. Çünki məzmun dəyişmədiyi halda, yeni metodlar sadəcə formal element kimi qalır. Bu səbəbdən XXI əsrin məktəbi ənənəvi fənn proqramlarından çox-çox irəli gedən, müasir cəmiyyətin tələblərinə uyğun, dinamik və funksional məzmun yaratmağı qarşısına məqsəd qoymuşdur. Belə bir məzmunun yaradılması isə, ilk növbədə, elmiliyi şərtləndirən zəruri tələblərin nəzərə alınmasını qarşıya qoyur.

Müasir pedaqoji araşdırmalar zamanı onların aşağıdakılardan ibarət olması müəyyənləşdirilmişdir.

*Kompetensiya yönümlülük.* Yeni məzmunun mərkəzində yalnız biliklərin toplanması deyil, onların tətbiqi, problem həlli, yaradıcı yanaşma, əməkdaşlıq və kommunikasiya bacarıqlarının inkişafı dayanır.

*Fənlərarası inteqrasiya.* Həyat problemləri yalnız bir fənnin sərhədlərində həll edilmir. Buna görə də STEAM yanaşması, ekoloji və mədəni mövzuların müxtəlif fənlərlə birgə öyrənilməsi getdikcə aktuallaşır.

*Milli-mənəvi və qlobal dəyərlərin harmoniyası.* İnnovativ məzmun həm milli kimliyi qoruyur, həm də qlobal çağırışlara açıq düşüncəli və tolerant vətəndaş formalaşdırır.

*Tədqiqatçılıq və layihə fəaliyyətləri.* Şagirdlərə hazır məlumat verməkdənsə, onları araşdırmağa, sual verməyə, kəşf etməyə təşviq edən tapşırıqlar üstünlük qazanır.

*Rəqəmsal resursların inteqrasiyası.* Elektron kitabxanalar, onlayn laboratoriyalar, simulyasiyalar, virtual reallıq texnologiyaları məzmunun ayrılmaz hissəsinə çevrilir.

*Fərdiləşdirmə və elastiklik.* Şagirdlərin maraqları və öyrənmə sürətinə uyğun modul və seçim kurslarının təqdim olunması məzmunun zənginliyini və cəlbediciliyini artırır.

Azərbaycan təhsilində son illər tətbiq edilən kurikulumlar bu prinsiplərə yaxınlaşmağa cəhd edir. Məsələn, ibtidai siniflərdə layihə əsaslı tapşırıqların verilməsi, yuxarı siniflərdə fənlərarası mövzuların öyrədilməsi, yeni dərsliklərin rəqəmsal versiyalarının yaradılması bu istiqamətdə mühüm addımlardır. STEAM mərkəzlərinin açılması, informatika fənnində kodlaşdırma və robototexnikaya üstünlük verilməsi də məzmunun texnoloji və praktiki yönümlülüyünü artırır.

Bununla yanaşı, bəzi dərsliklərdə məzmunun hələ də nəzəri məlumatlarla yüklənməsi, praktiki bacarıqların inkişafı üçün tapşırıqların kifayət qədər olmaması, dərslik və resurslarda milli-mədəni kontekstə uyğun nümunələrin azlığı, region məktəblərində texniki təminatın fərqli səviyyədə olması kimi bir sıra problemlər də qalmaqdadır.

İnnovativ məzmun təkcə məktəb proqramı deyil, şagirdin dünyagörüşünə, gələcək peşə fəaliyyətinə, dəyərlər sisteminə yön verən bünövrədir. Ona görə də bu məzmun gələcəkdə əmək bazarında tələb olunan bacarıqlara uyğun qurulmalı, eyni zamanda şəxsiyyətin ahəngdar inkişafına xidmət etməlidir.

Beləliklə, innovativ məzmunun başlıca şərti bilik, bacarıq, dəyər və texnologiyanın vəhdətidir. Bu vəhdətin nəzərə alınması səriştəyönlü məzmunun əsas cəhətlərindən biri hesab edilir.

### Dəstəkləyici mühitin yaradılması

İnnovativ pedaqogikanın uğuru üçün yalnız yaxşı məzmun və müasir texnologiya kifayət etmir. Ən vacib məsələ şagirdin və müəllimin özünü öyrənmə və öyrətmə prosesində rahat, inamlı və ilhamlı hiss etməsini təmin edən mühitin yaradılmasıdır. İlkin olaraq buna nail olmaq lazımdır.

Təcrübələrə əsasən belə qənaətə gəlmək olar ki, dəstəkləyici mühit çoxşaxəlidir və onu üç əsas istiqamətdə təsəvvür etmək olar:

*1.Məktəb mühiti*

Məktəb sadəcə təhsil müəssisəsi deyil, təhlükəsiz, ilhamverici və əməkdaşlığa açıq sosial məkan olmalıdır. Sinif otaqlarının ergonomikası, texniki təminat, rəqəmsal resursların əlçatanlığı, kitabxana və laboratoriyaların müasirliyi öyrənməyə münasibəti dəyişir. Müəllim-şagird münasibətlərinin mehriban, demokratik və tərəfdaşlıq ruhunda qurulması da bu mühitin mühüm şərtidir. Müasir məktəbin gücü həm də "açıq qapı" prinsipi ilə valideynləri və icmanı prosesə cəlb etməkdədir.

*2. Müəllimlər üçün dəstək*

İnnovativ mühitin daşıyıcıları müəllimlərdir. Onların peşəkar inkişafı, motivasiyası və sosial rifahı təmin edilmədən yenilikləri həyata keçirmək mümkün deyil. Müəllimlərin müasir texnologiyalar üzrə təlimləri, pedaqoji təcrübə mübadiləsi, psixoloji dəstək proqramları və təşəbbüslərinə dəyər verilməsi innovativ mühitin əsas sütunlarıdır. Eyni zamanda, müəllimlərə idarəetmədə sərbəstlik və yaradıcı təşəbbüslər üçün imkan verilməsi dərs prosesini daha çevik və maraqlı edir.

*3. Ailə və cəmiyyət dəstəyi*

Təhsildə dəyişiklik yalnız məktəblə məhdudlaşa bilməz. Valideynlərin, yerli icmaların, KİV və özəl sektorun təhsilə marağı, dəstəyi və iştirakı mühüm rol oynayır. Valideyn-müəllim tərəfdaşlığı şagirdin motivasiyasına təsir edən ən güclü amillərdəndir.

### Düşündürən sualların sirri

Təhsilin ruhunu dəyişən əsas amillərdən biri sualların keyfiyyətidir. Ənənəvi dərs modellərində suallar adətən hazır biliklərin yoxlanılmasına, cavabların əzbərlənməsinə xidmət edirdi: "Nədir?", "Nə zaman baş verdi?" kimi. Müasir innovativ pedaqogika isə sualların yalnız cavab almaq üçün deyil, düşündürmək, araşdırmağa sövq etmək, yaradıcılığı oyatmaq üçün verilməsini vacib hesab edir.

Düşündürən sualların mahiyyəti belə ifadə oluna bilər:

*Onlar hazır bilik tələb etmir, cavab axtarmaq üçün müstəqil düşüncə yaradır;*

*Bir neçə düzgün cavab ola bilər və bu, şagirdlərin fərqli baxış bucaqlarını qiymətləndirməyə imkan verir;*

*Şagirdi problem qoymağa və həll yolları axtarmağa istiqamətləndirir;*

*Şagirdin emosional-mənəvi dünyasına təsir göstərir, onu öyrənməyə sövq edir.*

Bu cür suallar həm dərslərin səmərəliliyini artırır, həm də şagirdlərdə XXI əsr bacarıqlarından olan tənqidi və yaradıcı düşünmə, ünsiyyət, əməkdaşlıq və qərarvermə vərdişlərini inkişaf etdirir.

Düşündürən suallar həm də müəllim-şagird münasibətini dəyişir. Bu suallar şagirdi yalnız dinləyici deyil, fikir ortağı edir. Müəllim isə cavabı əvvəlcədən bilən deyil, axtarış yoldaşı kimi çıxış edir. Bu yanaşma dərsdə emosional bağ yaradır, şagirdlərdə məsuliyyət və təşəbbüskarlığı artırır.

Azərbaycan təhsilində kurikulumların tətbiqi ilə düşünmə bacarıqlarına yönələn sualların sayının artması müsbət haldır. Lakin hələ də bəzi dərsliklərdə və dərs prosesində əzbər yönümlü sualların üstünlük təşkil etməsi müşahidə olunur. Düşündürən sualların geniş tətbiqi üçün xüsusi metodik təlimlərin təşkili, dərslik və resurslarda yaradıcı tapşırıqların artırılması, şagirdlərin sərbəst fikir bildirməsinə açıq və təhlükəsiz mühitin təmin edilməsi vacibdir.

Düşündürən sualların ən böyük sirri onların şagirdi təhsilin subyektinə çevirməsi, öyrənməyə daxili motivasiya oyatmasıdır. Bu suallar həm marağı, həm də öyrənmənin mənasını gücləndirir.

### Dərsin cazibə qüvvəsi - maraq

Maraq insanın öyrənmə prosesində ən güclü daxili hərəkətverici qüvvədir. Psixoloqlar sübut edirlər ki, şagird maraqlandığı zaman beynin öyrənmə ilə bağlı neyron şəbəkələri daha aktiv işləyir, yaddaş möhkəmlənir, öyrənilən bilik uzunmüddətli olur. Buna görə də pedaqoqlar marağı "dərsin cazibə qüvvəsi" adlandırırlar. Maraq olmayan dərs nə qədər müasir texnologiya ilə qurulsa da, ruhsuz və təsirsiz qalır.

Maraq həm dərsə başlanğıcda motivasiya yaradır, həm də prosesin sonunadək davamını təmin edir. Müasir pedaqogika öyrənmədə "faydalı maraq" (beneficial interest) prinsipini əsas tutur. Şagird yeni bilik və bacarıqları onun həyat təcrübəsi, hissləri və gələcək hədəfləri ilə əlaqələndirəndə öyrənməyə həvəslənir. Bu, motivasiyanın ən güclü və davamlı növüdür.

Dərsdə maraq yaratmağın bir neçə sınaqdan keçmiş üsulu vardır:

*Birinci, həyatla əlaqə qurmaq. Şagird gördüyü və yaşadığı hadisələrlə mövzunun əlaqəsini hiss etdikdə dərs onun üçün mənalı olur. Məsələn, kimya dərsində qida məhsullarının tərkibindəki maddələrin izahı, coğrafiyada öz kəndi və ya şəhərinin relyef xəritəsinin öyrənilməsi dərsə maraq gətirir, cazibə qatır.*

*İkinci, problem yaratma. Şagirdlərə cavabı hazır şəkildə təqdim etməkdənsə, onlara "niyə belə oldu?", "daha yaxşı necə ola bilərdi?" kimi düşüncəyə sövq edən suallarla müraciət etmək lazımdır. Belə suallar onların təlim marağını artırır.*

*Üçüncü, gözlənilməzlik effekti. Müəllimin dərsə maraqlı fakt, hekayə, təcrübə və ya qısa video ilə başlaması diqqəti dərhal cəlb edir.*

*Dördüncü, fərdiləşdirmə. Şagirdlərin maraqlarına, bacarıqlarına və həyat planlarına uyğun tapşırıqlar motivasiyanı gücləndirir.*

*Beşinci, texnologiya və yaradıcılıq. Rəqəmsal oyunlar, interaktiv testlər, qrafik və animasiyalar dərsin əyləncəli və cazibədar olmasına kömək edir.*

Maraq həm də emosional mühitdən qidalanır. Şagirdlər səmimi, sərbəst fikir söyləyə bildikləri, səhv etməkdən qorxmadıqları mühitdə daha çox öyrənməyə həvəs göstərirlər. Burada müəllimin pozitiv münasibəti, səmimiyyəti və ünsiyyət bacarığı mühüm rol oynayır.

Ənənəvi təhsildə maraq çox vaxt kənardan - qiymət, mükafat və ya cəza ilə yaradılırdı. Müasir yanaşma isə marağın daxildən gələn öyrənmə sevinci üzərində qurulmasını vacib sayır. Çünki yalnız bu cür maraq davamlıdır və şagirdin ömürboyu öyrənmə vərdişinin əsasını təşkil edir.

Maraq həm də yaradıcılığın qapısını açır. Maraq oyadan dərsdə şagirdlər yeni ideyalar irəli sürür, fərqli həll yolları axtarır, suallar verir və öyrənməyə aktiv qoşulurlar. Bu səbəbdən müasir təlim strategiyalarının - layihə işi, tədqiqat tapşırıqları, debat və oyun metodlarının mərkəzində maraq faktoru dayanır.

Azərbaycan məktəblərində yeni kurikulumların tətbiqi ilə şagird marağını artırmağa yönəlmiş metodikalar genişlənir. Lakin hələ də bəzi dərslərdə formal icraçılıq və əzbərçilik marağı zəiflədir. Müəllimin öz peşəsinə həvəsi, dərsə yaradıcı yanaşması və resurslardan məharətlə istifadə etməsi bu problemi aradan qaldıra bilər.

Dərsin cazibə qüvvəsi - maraq şagirdi yalnız hazır bilik daşıyıcısı deyil, öyrənmənin fəal iştirakçısı edir. Maraqlı dərs, şagirdin yaddaşında müəllimdən daha çox hiss və təcrübə olaraq qalır. Pedaqoqlar üçün əsas məqsəd də məhz bu cür yadda qalan dərslər yaratmaqdır.

## Təlimin uğur açarı - motivasiya

Motivasiya insan fəaliyyətini hərəkətə gətirən daxili və xarici qüvvələrin vəhdətidir. Təlim prosesində motivasiya şagirdin öyrənməyə münasibətini, məqsəd və nəticə gözləntilərini müəyyənləşdirir. Əgər maraq dərsə cazibə qatırsa, motivasiya bu cazibəni davamlı öyrənmə istəyinə çevirir. Buna görə də müasir pedaqogika motivasiyanı təlimin əsas dayaqlarından biri hesab edir.

Motivasiya, iki növdə özünü göstərir: daxili və xarici motivasiya.

Daxili motivasiya öyrənmənin özündən zövq almaq, yeni bilik və bacarıqları mənimsəmək istəyindən doğur. Bu, ən güclü və davamlı motivasiya formasıdır.

Xarici motivasiya isə qiymət, mükafat, müəllim və ya valideynin tələbi, hətta cəza kimi xarici amillərdən qaynaqlanır. Bu tip motivasiya tez-tez təsirli olsa da, uzunmüddətli öyrənmə üçün kifayət etmir.

Müasir müəllim qarşısında duran əsas vəzifələrdən biri şagirdlərdə daxili motivasiyanı oyatmaq və qorumaqdır. Bu, təhsilin yalnız formal nəticələrə deyil, şəxsi inkişaf və yaradıcılığa xidmət etməsi deməkdir.

Motivasiya həm də şəxsi inkişafın təməlidir. Şagird yalnız testlər üçün öyrənməməli, öyrəndiyi bilik və bacarıqların həyatına necə təsir edəcəyini anlamalıdır. Bu yanaşma ömürboyu öyrənmə vərdişinin formalaşmasında mühüm rol oynayır.

Azərbaycan təhsilində son illər aparılan islahatlar - yeni kurikulumların tətbiqi, STEM layihələrinin genişləndirilməsi, fənn olimpiadalarının və yaradıcılıq müsabiqələrinin təşkili motivasiya mühitinin gücləndirilməsinə xidmət edir. Lakin hələ də bəzi siniflərdə şagirdlərin öyrənməyə yalnız imtahan məqsədli yanaşması müşahidə olunur ki, bu da təlimin mənəvi dəyərini azaldır. Bu problemi həll etmək üçün müəllimlərin motivasiyaedici strategiyalara yiyələnməsi və dərslərdə şəxsiyyətə yönəlmiş yanaşmanı üstün tutması vacibdir.

Motivasiyanın əsas sirri şagirdin "mən bacara bilərəm" inamını yaratmaq və hər bir öyrənmə addımını mənalı təcrübəyə çevirməkdir. Motivasiya olan yerdə təlim sadəcə öyrətmək deyil, ilhamlandırmaq prosesinə çevrilir.

XXI əsrin təhsil fəlsəfəsi, innovativ pedaqogika və maraq-motivasiya yönümlü öyrənmə modelləri göstərir ki, təhsil artıq yalnız bilik ötürmək funksiyası ilə məhdudlaşmır. Bu gün məktəb şagirdin şəxsiyyətini, bacarıqlarını, yaradıcılıq potensialını və dəyərlər sistemini inkişaf etdirən mərkəzə çevrilmişdir. Bu baxımdan əldə etdiyimiz uğurlarımızı dəyərləndirməli və daha da inkişaf etdirməliyik.

**Ənvər ABBASOV,**
*Bakı Slavyan Universitetində rektorun məsləhətçisi, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*



# Ailə və məktəb eyni dəyərlər sistemini paylaşanda

Müasir dövrdə insanın inkişafı təkcə bioloji və fərdi səylərlə deyil, həm də onun sosial və ekoloji mühiti ilə sıx bağlı şəkildə baş verir. "Sosial ekologiya" anlayışı bu qarşılıqlı asılılığın mahiyyətini açıqlayır: insan təkcə təbiətin deyil, həm də cəmiyyətin ekosisteminin bir hissəsidir. "Journal of Education"da dərc olunan "Exploring the Interconnections of Social Structures and Individual Well-Being through Social Ecology" ("Sosial ekologiya baxımından sosial quruluşlar və fərdi rifah arasındakı qarşılıqlı əlaqələrin tədqiqi") adlı məqalədə qeyd olunur ki, fərdin rifahı onun daxilində yaşadığı sosial strukturların keyfiyyətindən birbaşa asılıdır. Yəni şəxsi inkişafı yalnız fərdi iradə və istək deyil, həm də sosial mühitin harmoniyası müəyyən edir.

Bu baxımdan uşaqların və yeniyetmələrin inkişafı, xüsusilə də təhsil prosesində formalaşan sosial münasibətlər sosial ekologiyanın ən mühüm sahələrindəndir. Çünki insanın əsas dəyərləri, davranış modelləri və dünyagörüşü məhz bu dövrdə formalaşır. Sosial ekologiya insan, cəmiyyət və sosial mühitin qarşılıqlı təsirlərini öyrənən elmi istiqamətdir. Bu sahə insanların yalnız təbiətlə deyil, bir-biri ilə olan münasibətlərinin də ekoloji tarazlığa təsir etdiyini vurğulayır. Sosial mühit - ailə, məktəb, dost çevrəsi, kütləvi informasiya vasitələri və mədəni dəyərlər - fərdin psixoloji və mənəvi sağlamlığına ekosistem kimi təsir göstərir.

Məqalənin müəllifi James P.Takona bu modeli "sosial ekosistemlərdə qarşılıqlı enerji dövranı" adlandırır. Yəni hər bir münasibət, hər bir qarşılıqlı təsir fərdin daxili balansını gücləndirə və ya zəiflədə bilər. Əgər bu mühitdə empatiya, hörmət və ədalət prinsipləri hakimdirsə, fərdi inkişaf üçün münbit şərait yaranır.

Bu ekosistemdə uşağı gücləndirən və formalaşdıran əsas amil təhsildir. Məktəb yalnız bilik ötürən yer deyil; o, eyni zamanda sosial bacarıqların, emosional savadın və əxlaqi prinsiplərin inkişaf meydanıdır. "BMC Psychology" jurnalında dərc edilən başqa məqalədə göstərilir ki, məktəb mühiti uşağın idrak, emosional və sosial inkişaf səviyyəsinə birbaşa təsir edir. Məqalə müəllifləri bildirir ki, məktəbdəki münasibətlərin keyfiyyəti, müəllimlərin empatik yanaşması və şagirdlərarası qarşılıqlı hörmət uşağın koqnitiv potensialını artırır. Tənqid, təzyiq və neqativ rəqabət mühiti uşaqlarda stress və özünəinamsızlıq yaradır.

Uşağın ilk sosial mühiti ailədir. Burada formalaşan emosional sabitlik və dəyərlər sonradan məktəb və cəmiyyət münasibətlərinə də sirayət edir. Ailə və məktəb arasındakı harmonik əlaqə uşağın sosial adaptasiyasını gücləndirir və onun psixi sağlamlığı üçün qoruyucu faktor rolunu oynayır.

Ailə və məktəb eyni dəyərlər sistemini paylaşanda, uşaq iki fərqli sosial məkanda özünü təhlükəsiz və qəbul olunmuş hiss edir. Bu isə onun özünüifadə və yaradıcılıq qabiliyyətini gücləndirir. Əks halda, ailə ilə məktəb arasında ziddiyyətlər (məsələn, birinin avtoritar, digərinin liberal olması) uşağın sosial kimlik böhranına və davranış pozuntularına gətirib çıxara bilər.

Yeniyetməlik dövrü sosial ekologiyanın ən həssas mərhələsidir. Bu yaşda fərd həm ailədən qismən uzaqlaşır, həm də yeni sosial qruplara - dostlara, müəllimlərə, onlayn icmalara yönəlir. Araşdırmalar göstərir ki, gənclərin emosional rifahı bu mərhələdə müxtəlif ekoloji domenlər - ailə, məktəb, məhəllə və virtual sosial şəbəkələr arasında balansdan asılıdır.

Yeniyetmə müsbət sosial əlaqələr içindədirsə, özünü dəyərli və təhlükəsiz hiss edir, bu da onun şəxsiyyət kimi inkişafını gücləndirir. Əksinə, neqativ münasibətlər, mobbinq və ya sosial təcrid yeniyetmənin mənlik konsepsiyasına zərbə vurur, özünüifadə imkanlarını məhdudlaşdırır.

Müasir təhsil sistemlərində sosial ekologiya prinsiplərinin tətbiqi uşaqların və gənclərin harmonik inkişafı üçün əsas vasitələrdən biridir. Bu prinsiplər üç səviyyədə həyata keçirilə bilər:

*Fərdi* - şagirdin özünüdərketmə, emosional savad və empatiya bacarıqlarını inkişaf etdirmək.

*Məktəb* - müəllimlər arasında əməkdaşlıq, inklüziv təhsil və sosial ədalət mühitinin qurulması.

*İctimai səviyyə* - təhsilin ədalətli və bərabər imkanlara əsaslanması, sosial dəstək sistemlərinin möhkəmləndirilməsi.

*Sosial ekologiyada disharmoniya* - yəni sosial mühitin zəhərlənməsi fərdlərin emosional və intellektual inkişafına ciddi zərbə vurur. Araşdırmalar təsdiq edir ki, məktəblərdə sosial ədalətsizlik, diskriminasiya və laqeyd münasibət uşaqların öyrənməyə olan motivasiyasını azaldır.

Bu, ekosistemdəki balansın pozulmasına bənzəyir. Təbiətdə bir elementin çirklənməsi başqa sistemləri zədələyirsə, sosial mühitdə də bir neqativ münasibət bütün sinfin atmosferini korlaya bilər.

Sosial disharmoniya nəticəsində uşaqlarda:

- stres və aqressiya halları artır,
- sosial əlaqələr zəifləyir,
- yaradıcılıq və empatiya kimi bacarıqlar arxa plana keçir.

Bu səbəbdən təhsil sistemində sosial ekologiyanın əsas məqsədi yalnız akademik nailiyyətlər deyil, həm də emosional və sosial rifahın qorunması olmalıdır.

Uşaqlar və yeniyetmələr sosial ekosistemin gələcək memarlarıdır. Onların dünyagörüşü bugünkü sosial və təhsil mühitinin məhsuludur. Əgər bu mühit ədalət, hörmət və əməkdaşlıq prinsipləri üzərində qurularsa, gələcək nəsil daha empatik və məsuliyyətli olacaq.

Sosial ekologiya insan inkişafının çoxsəviyyəli bir sistem olduğunu göstərir. Uşaqlar və yeniyetmələr üçün bu sistemin mərkəzində təhsil dayanır. Məktəb, ailə və cəmiyyət birlikdə bir ekosistem yaradır: burada hər bir ünsiyyət, hər bir dəyər və münasibət fərdin şəxsiyyətinə təsir edir.

Əgər bu ekosistemdə harmoniya, empatiya və ədalət hökm sürürsə, insanın daxili potensialı çiçəklənir. Sosial ekologiya bizə öyrədir ki, şəxsi inkişaf üçün sadəcə fərdi istək yetərli deyil, sağlam sosial mühit, dəstəkləyici münasibətlər və balanslı təhsil sistemi də lazımdır.

**"Azərbaycan məktəbi" jurnalı**

# ZƏFƏR GÜNÜNƏ HƏSR OLUNMUŞ BASKETBOL TURNİRİ KEÇİRİLİB

## Peşə təhsili müəssisələrinin tələbələri qələbə əzmini nümayiş etdiriblər



Noyabrın 7-də Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə peşə təhsili müəssisələrinin tələbələri arasında keçirilən basketbol idman növü üzrə turnirə yekun vurulub.

8 Noyabr — Zəfər Gününün 5-ci ildönümünə həsr olunan turnirdə peşə təhsili müəssisələrindən yüz nəfərə yaxın tələbə iştirak edib. Yarışda Turizm və Sosial Xidmətlər üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandası Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandasına qalib gələrək III yerə layiq görülüb. Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandası Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin komandasını məğlub edərək turnirin qalibi olub.

Oyunlardan sonra qaliblərin mükafatlandırılma mərasimi keçirilib. I, II və III yerlərin qaliblərinə medal və hədiyyələr, çempion komandaya kubok təqdim olunub. Turnirdə oyunların idarə olunmasında səmərəli fəaliyyətinə görə Azərbaycan Basketbol Federasiyasının İdman Departamentinə “Təşəkkürnamə”, oyunlarda fərqlənən basketbolçuya “Ən yaxşı oyunçu” nominasiyası üzrə diplom təqdim edilib.

Tədbirdə Elm və Təhsil Nazirliyinin, Peşə Təhsili üzrə Dövlət Agentliyinin və Azərbaycan Basketbol Federasiyasının rəsmi şəxsləri iştirak ediblər.

Qeyd edək ki, turnirin keçirilməsində məqsəd tələbələr arasında dostluq və komanda ruhunu gücləndirmək, basketbol idman növünə olan marağı artırmaq, 44 günlük Vətən müharibəsində qazanılmış qələbənin əhəmiyyətini gənclərə çatdırmaq və onlarda vətənpərvərlik ruhunu möhkəmləndirmək olub.




## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 36138 **Sifariş:** 2340

**Məsul növbətçi:** O.Mustafayev


## Yeniyetmələrimiz Avropa çempionatında 3 medal qazanıblar




Monteneqronun Budva şəhərində keçirilən Avropa çempionatında “Təhsil” Respublika İdman Mərkəzinin yeniyetmə şahmatçıları 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar. Mərkəzdən “Azərbaycan müəllimi”nə verilən məlumatda qeyd olunur ki, Xaqan Əhməd (4 nömrəli İOEUGİŞM), Mehriban Əhmədli (Gəncə şəhər 2 nömrəli UGİŞM) və Məryəm Ağaverdiyeva (3 nömrəli RİOEUGİŞM) bu uğura imza atıblar.

# Məktəblilər maarifləndirilir



## Paytaxt məktəblərində “Uşaq hüquqları aylığı”

Paytaxt məktəblərində “Uşaq hüquqları aylığı” ilə əlaqədar maarifləndirici tədbirlər keçirilir. Tədbirlərdə 20 oktyabr-20 noyabr tarixlərini əhatə edən “Uşaq hüquqları aylığı”nın təşkil olunmasında əsas məqsədin uşaq hüquqlarının müdafiəsi sahəsində əhalinin məlumatlılığının artırılması, cəmiyyətin diqqətinin uşaqların müdafiəsinə cəlb edilməsi və bu istiqamətdə ictimai fəallığın təşviqindən ibarət olduğu şagirdlərin nəzərinə çatdırılır.

Maarifləndirici tədbirlərdə şagirdlərə uşaq hüquqlarının mahiyyəti, dövlət tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən islahatlar barədə ətraflı məlumatlar verilir. Azərbaycanda dövlət uşaq siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğu və bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi qeyd edilir.

Bildirilir ki, ölkəmizdə uşaqlar dövlətin və cəmiyyətin daim diqqət mərkəzindədir və uşaq problemlərinin ardıcıl həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Qeyd edək ki, təhsil müəssisələrində “Uşaq hüquqları aylığı” çərçivəsində tədbirlərin noyabrın 20-dək davam etdirilməsi nəzərdə tutulur.

# Etibarsız sayılır

**Astara Pedaqoji Kolleci** tərəfindən 2025-ci ildə Xəlilova Məleykə Fuad qızına verilmiş AA-227873 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1994-cü ildə Muradova Fatma Farik qızına verilmiş ЦВ-842159 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2025-ci ildə bitirmiş Həsənov Mehdi Qorxmaz oğluna verilmiş E-864480 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Əliyeva Günel İlham qızına verilmiş B-001502 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Cavadova Sevinc Əli qızına verilmiş B-309235 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Qorxmuq kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Qaffarov Vüqar İlham oğluna verilmiş A-882909 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Kompüter Kolleci** tərəfindən 2006-cı ildə Karqov Valeriy İqoryeviçə verilmiş BB-II-036044 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Qapanlı kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Mustafayeva (Həsənova) Sevda İbrahim qızına verilmiş B-160595 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Əmtəəşünaslıq Kommersiya İnstitutu** tərəfindən 1995-ci ildə Zülfüqarov İmran Ziliş oğluna verilmiş AB-I-005013 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Xanlıqlar kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Mustafayeva Nuranə Fariz qızına verilmiş B-158811 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 11 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Məmmədova Lalə İlham qızına verilmiş 344344 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 26 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Məmmədov Qüdrət Sabir oğluna verilmiş A-544757 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Uzunoba kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Bəylərli (Bəylərova) Türkanə Əli qızına verilmiş 609138 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2000-ci ildə Hüseynova Elnarə Pənah qızına verilmiş A-070443 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** təbiət elmləri təmayüllü gimnaziyanı 2022-ci ildə bitirmiş Əhmədzadə Aynur Qədir qızına verilmiş E-506747 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Uzunoba kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Dünyamalıyev Nüsrət Yamin oğluna verilmiş A-018884 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** 5 nömrəli tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Qurbanova Zülfiyyə Zahid qızına verilmiş 146341 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Saray kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Kərimov Ramin Seyidağa oğluna verilmiş 149895 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 186 nömrəli tam orta məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Həsənov İltifat Rəhbər oğluna verilmiş B-391397 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Qarakazımlı kənd tam orta ümumtəhsil məktəbi 1984-cü ildə bitirmiş Abdullayev Asim Hacıbala oğluna verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Babışova Ramilə Ələddin qızına verilmiş B-535212 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli tam orta məktəb-liseyi 2023-cü ildə bitirmiş Rəhimli Mehdi Bəxtiyar oğluna verilmiş E-564378 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ukrayna Milli Mülki Müdafiə Universiteti** tərəfindən 2013-cü ildə Məmmədov Rüfət Azər oğluna verilmiş ДІ-036178 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Çobanabdallı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Qələndərova (Məhərrəmova) Xəyalə Cəmaləddin qızına verilmiş A-524912 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 6 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Abdullayeva (Məmmədova) Ruhiyyə Bəhruz qızına verilmiş B-618701 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Dilman kənd tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Çırakçı Aynur Siyasət qızına verilmiş 136 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Çaylı kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2010-cu ildə bitirmiş Carçıyev Hikmət Famil oğluna verilmiş B-724260 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Kompüter Kolleci** tərəfindən 2013-cü ildə Məmmədov Samir Ruslan oğluna verilmiş AA-033573 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 13 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Məmmədov Əmin Elşad oğluna verilmiş E-606675 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 14 nömrəli tam orta məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Mustafayeva Aişə Arif qızına verilmiş C-689463 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 17 nömrəli tam orta məktəbin IX sinfini 2024-cü ildə bitirmiş İsmayılova Fatimə Fərid qızına verilmiş C-921833 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Rəssamlıq Akademiyası** nəzdində İncəsənət Kolleci tərəfindən 2009-cu ildə Qəniyev Ərəstun Vidadi oğluna verilmiş BB-II-120876 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Musaküçə kənd tam orta ümumtəhsil məktəbi 1971-ci ildə bitirmiş Qurbanov Həbib Mazan oğluna verilmiş A-468562 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 2 nömrəli tam orta məktəbin VIII sinfini 1982-ci ildə bitirmiş İbrahimov Vaqif Muxtar oğluna verilmiş A3-II-411430 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli məktəb-liseyi 2003-cü ildə bitirmiş Muxtarzadə Fərid Akim oğluna verilmiş A-656054 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər Məktəb Lisey Kompleksi** 2022-ci ildə bitirmiş Həsənzadə Səlim Rəhman oğluna verilmiş E-456200 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.